

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Etimad və inamı doğruldan Azərbaycanın Birinci Xanımı



4

SƏS

№ 152 (7077)

23 avqust 2024-cü il.
Qiymәti 60 qәpik

## Azərbaycan - Özbəkistan: tarixi bağlar, strateji əməkdaşlıq




2

**Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanda dövlət səfərindədir**

# Bakıdan ünvanlanan SƏRT MESAJ



6

## Aqrar sığorta nədir, nə vəd edir?



7

## Dünyada ən çox qızıl ehtiyatı olan bu ölkələrdir




16

## Böyük Qayıdışımızın Füzuli və Cəbrayıl səhifəsi



8

## SOS: Soyumuz tükənir!



10

## Ərzaq təhlükəsi(zliyi): Azalan istehsal, artan idxal, bahalaşan qiymətlər - SƏBƏB NƏDIR?



15

# Azərbaycan - Özbəkistan: tarixi bağlar, strateji əməkdaşlıq

## Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanda dövlət səfərindədir

Beynəlxalq aləmdə etibarlı tərəfdaş olan Azərbaycana göstərilən etimad və inam regionla məhdudlaşmır, beynəlxalq miqyasda onun nüfuzunu daha da möhkəmləndirib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz müxtəlif əməkdaşlıq layihələri ilə region və onun hüdudlarından kənarda sülh və sabitliyin sərhədlərinin genişləməsinə davamlı olaraq töhfələr verir. Regionumuzda baş verən proseslərin normallaşdırılması istiqamətində görülən işlər milli maraqlarımızın ifadəsidir. Dövlətimizin xarici siyasətində ikitərəfli və çoxtərəfli çərçivədə əlaqələrin qurulması və müxtəlif prioritetlər üzrə inkişaf etdirilməsi dövlətlərarası münasibələrin inkişafında mühüm rol oynayır. Son illərdə Özbəkistanla Azərbaycan arasında münasibətlər keyfiyyət baxımından yeni inkişaf mərhələsinə qədəm qoyaraq strateji səviyyəyə yüksəlib. Eyni soy-kökə və uzun tarixə söykənən Azərbaycan-Özbəkistan əlaqələri də bu gün yeni dövrün çağırışlarına uyğun olaraq inkişaf etdirilir. İki ölkə arasında qarşılıqlı hörmət və etimad üzərində qurulmuş əlaqələr ötən müddət ərzində siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə dinamik şəkildə inkişaf edib və səmərəli əməkdaşlıq daha da yüksəlib. Qarşılıqlı səfərlər, bu səfərlər çərçivəsində aparılan müzakirələr, imzalanan sənədlər gələcək inkişaf baxımından diqqətçəkəndir. Qarşılıqlı səmərəli əməkdaşlıq üçün yeni perspektivlər açılmaqdadır.

### BÜTÜN TÜRK DÜNYASININ İNKİŞAFINA TÖHFƏ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 22-də Özbəkistan Respublikasına dövlət səfərinə gəlməsi əlaqələrin uğurlu inkişafının göstəricisidir.

Dünən Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddəki Heydər Əliyev Meydanında Ümummilli Liderin barelyefi önünə gül dəstələri qoyublar. Daşkəndin Mirabad rayonunda yaradılan Heydər Əliyev Meydanının və Ulu Öndərin burada ucaldılmış barelyefinin 2022-ci il iyunun 21-də açılışı olub. Ərazisi tamamilə yenidən qurulan meydanda yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.








Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər. Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

Bəli, Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni kökə malik olan hər iki xalq arasındakı əlaqələr qədim dövrləri əhatə edir. Tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olan Azərbaycan və Özbəkistan arasında diplomatik münasibətlər 1995-ci ildə qurulmuşdur. Dövlət müstəqilliklərini əldə etdikdən sonra iki dövlət arasında tarixi dostluq, qardaşlıq münasibətləri daha da inkişaf etdirilib və uzun illərin sınağından çıxaraq bugünkü səviyyəyə gəlib çatıb. 1970-ci ildə o vaxt Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyevlə Özbəkistanın rəhbəri Şərəf Rəşidov arasında yaranmış dostluq münasibətləri iki ölkə arasındakı əlaqələrin bugünkü inkişafının əsası olub. Ümummilli Lider Heydər Əliyev və Özbəkistanın birinci Prezidenti İslam Kərimov tərəfindən 1996-cı ildə Bakıda imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə", eləcə də Ümummilli Liderin 1997-ci ilin iyununda Özbəkistana səfəri qarşılıqlı anlaşma, etimad və hörmətə əsaslanan gələcək münasibətlərimizin konturlarını müəyyən edib.

### ƏDALƏTLİ MÖVQEYİMİZƏ DOST MÜNASİBƏTİ

Dövlətimizin başçısının 2004-cü il martın 23-24-də Özbəkistana dövlət səfəri zamanı "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə" imzalanıb. Strateji tərəfdaşlıq münasibətlərinin əsasını qoyan həmin sənəddə tərəflərin keçmiş Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsinə qəti şəkildə dəstək verdikləri ifadə olunub. Özbəkistan Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib.

Əlbəttə ki, bütün dost ölkələr kimi, Azərbaycan Prezidentinin uzaqgörən və müdrik siyasəti nəticəsində əldə edilmiş uğurlar Özbəkistanda da sevinclə qarşılanır. Xatırladaq ki, Özbəkistan keçmiş Qarabağ münaqişəsi ilə bağlı məsələdə daim Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib. Vətən müharibəsi dövründə də Özbəkistan Xarici İşlər Nazirliyi tərəfləri hərbi əməliyyatları dayandırmağa, suverenlik və ərazi bütövlüyü prinsiplərinə riayət etməklə, münaqişəni sülh yolu ilə həll etmək üçün diplomatik danışıqlara başlamağa çağırıb.

### FÜZULİYƏ DOST HƏDİYYƏSİ

Hazırda iki ölkə arasında hərtərəfli və strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Dövlətlərarası münasibətlərdə imzalanan sənədlər, bəyanatlar mühüm rol oynayır. İki ölkə arasında münasibətlər yüksələn xətlə inkişaf edir. İqtisadi sahədə də əlaqələr inkişafdadır. Ticarət-iqtisadi, kənd təsərrüfatı, energetika, səhiyyə, nəqliyyat-logistika, ətraf mühitin mühafizəsi, dövlət xidmətlərinin göstərilməsi, mədəni-humanitar, sosial və turizm sahələrində əməkdaşlığın gücləndirilməsi ilə bağlı razılıq əldə olunub.

*Ardı Səh. 3*

Əvvəli səh. 2

# Azərbaycan - Özbəkistan: tarixi bağlar, strateji əməkdaşlıq

## Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanda dövlət səfərindədir

Azərbaycanın suverenliyinin bərpa olunması işində Özbəkistanın və özbək xalqının dəstəyini qeyd etməliyik. Füzulidə Özbəkistan Prezidentinin və xalqının hədiyyəsi olan məktəbin açılışı münasibətlərin inkişafında öz sözünü deyir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir.

### ƏMƏKDAŞLIQ ÜÇÜN MÖHKƏM HÜQUQİ BAZA

2022-ci il Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafı baxımından uğurlu olub. Həmin il dövlətimizin başçısının Özbəkistana üç dəfə səfər etməsi Azərbaycan Prezidentinin qardaş ölkə ilə əməkdaşlığın inkişafına böyük önəm verməsinin göstəricisidir. Ötən il noyabrın 8-də isə Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak etmək üçün Özbəkistanda səfərdə olub. Dövlətimizin başçısının bütün bu səfərləri zamanı əldə edilmiş razılaşmalar Mərkəzi Asiyanın aparıcı ölkələrindən olan Özbəkistanla əlaqələrimizin yeni mərhələdə əsas konturlarını müəyyənləşdirib.







Həm Azərbaycan, həm də Özbəkistan iqtisadi baxımdan da bütün Türk dünyasının qüdrətli dövlətləri hesab olunurlar. Nəqliyyat sektoru iki qardaş dövlət, bütövlükdə türkdilli ölkələr arasında əlaqələrin möhkəmlənməsinə mühüm töhfələr vermək perspektivlərinə malik istiqamətlərdən biridir. Prezident İlham Əliyevin 2022-ci ilin iyununda Özbəkistana dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş" bu baxımdan mühüm əhəmiyyət kəsb edir.




Azərbaycan-Özbəkistan iqtisadi əlaqələri - iqtisadi-ticarət, investisiya tərəfdaşlığı genişlənib. Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması da investisiya əməkdaşlığının, işgüzar dairələr arasında dialoqun inkişafına təkandır. Bundan başqa, enerji, regionlararası əməkdaşlıq, sənaye, nəqliyyat-tranzit və s. sahələrdə əməkdaşlıq münasibətləri uğurla davam etdirilir.

İki ölkə arasında bu vaxtadək imzalanmış 170-dən çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb. Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir.

Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. İki ölkə arasında bu vaxtadək imzalanmış xeyli sayda sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb. Azərbaycanın Özbəkistanla əməkdaşlığı gündən-günə daha da möhkəmlənir.

Təbii ki, Azərbaycan-Özbəkistan münasibətləri bundan sonra da yüksələn xətlə inkişaf edəcək, bu əməkdaşlıq həm ölkələrimizin və xalqlarımızın, həm də bütün türk dünyasının inkişafına öz töhfəsi verəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Etimad və inamı doğruldan Azərbaycanın Birinci Xanımı



Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri nəticəsində tarixin çətin və taleyüklü sınaqlarından çıxaraq dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilən Azərbaycan dövləti günü-gündən daha da güclənərək, iqtisadi qüdrəti, dinamik inkişafı ilə seçilən dövlətlər sırasındadır. Azərbaycanda baş verən sıçrayışlardan, onun simasının gündən-günə dəyişməsindən, dünyanın nüfuzlu dövlətləri sırasında layiq yer qazanmasından danışarkən bu uğurlara töhfəsini verən Azərbaycanın Birinci Xanımı, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyətini vurğulamaq vacib məqamlardandır. Fəaliyyəti dövründə Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrini reallaşdırır. Elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirərək, respublikanın və xarici ölkələrin fondları ilə əməkdaşlığı genişləndirir.

## "MƏN PREZİDENTİN ETİMADINI, ƏN BAŞLICASI İSƏ MƏNƏ İNANAN, ÜMİD BƏSLƏYƏN İNSANLARIN ETİMADINI DOĞRULTMALIYAM"

Mehriban Əliyeva Birinci vitse-prezident seçildikdən sonra müsahibələrindən birində bildirib ki, yeni vəzifədə Prezidentin etimadını, ən başlıcası isə ona inanan, ona ümid bəsləyən insanların etimadını doğruldacaq: "Məni Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin etmək qərarı Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü olub. Əlbəttə, uzun illər ərzində həm Prezidentin xanımı, həm də onun silahdaşı olmağım da yəqin ki, öz rolunu oynayıb".

Azərbaycanın Birinci vitse-prezidenti müxbirin "Siz dərhal razılaşdınızmı?" sualına cavabında deyib: "Biz müzakirələr aparır, götür-qoy edirdik. Mənim əsas tərəddüdüm üzərimə qoyulan bu məsuliyyətin öhdəsindən nə dərəcədə gələ biləcəyim müstəvisində idi. Mən birmənalı şəkildə bilirəm və əminəm ki, dövlətin maraqları ilə həyat yoldaşımın məmə tövsiyələri və deyəcəkləri tamamilə üst-üstə düşəcək. Deməli, yanımda onun simasında birmənalı şəkildə mənə kömək edəcək, hər hansı çətinliyim olarsa məni dəstəkləyəcək, düzgün yol göstərəcək bir şəxsiyyət var. Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam". Belə də oldu. Mehriban xanim ən çətin zamanlarda insanların yanında oldu.

## "MƏDƏNİ İRSİMİZ YENİDƏN FİKİR SÜZGƏCİNDƏN KEÇİRİLİR, ƏZƏLİ MİLLİ ƏNƏNƏLƏRƏ VƏ KÖKLƏRƏ QAYIDILIRDI"

Vurğulayaq ki, aktiv ictimai fəaliyyətə 1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunu yaratmaqla başlayıb. 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədi ilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan-İrs" jurnalını təsis edib. Müsahibələrindən birində Azərbaycan Mədəniyyət Fondunun və "İrs" jurnalının yaradılma məqsədlərini Mehriban Əliyeva özü belə bildirmişdir: "Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaradarkən onun əsas məqsədi Azərbaycan mədəniyyətini təbliğ etmək, tanıtdırmaq idi. "İrs" jurnalını da mən elə onda təsis etdim. Jurnal, əslində, Fondun fəaliyyətini işıqlandırmaqla məşğul olurdu və müəyyən bir mövzuya həsr edilən hər bir nömrə həm populyar, həm də tədqiqat materialı idi. İftixarla deyə bilərəm ki, Azərbaycan mədəniyyəti barədə bizdən əvvəl hələ heç kim belə şirin yazmayıbdır. Məsələn, miniatürdən və ya memarlıq abidələrindən yazmağı qarşımıza məqsəd qoyduqda, əməkdaşlığa, əslində, həm akademiya alimlərini, həm jurnalistləri, həm də sənətşünasları cəlb etmişdik. Fond da, jurnal da kifayət qədər mürəkkəb vəzifələri yerinə yetirməli idi. O illər müstəqil Azərbaycanın təşəkkül illəri idi. Siyasi, iqtisadi dəyişikliklərlə yanaşı, köhnə ideologiyadan xilasolma prosesi də gedir, stereotiplər dağıdılırdı. Kifayət qədər təlatümlü həmin dövrdə mədəni irsimiz yenidən fikir süzgəcindən keçirilir, əzəli milli ənənələrə və köklərə qayıdılırdı".

## HUMANİZMİN ƏN NÜMUNƏVİ GÖSTƏRİCİSİ

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun səhiyyə ocaqlarının bərpa edilməsi və inşası ilə bağlı layihələri də öz nəticəsini vermiş bu gün tibbi müəssisələr dünya standartlarına uyğun inkişaf etmiş ölkələrdən gətirilmiş müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur. Belə ki, Fondun həyata keçirdiyi sosialyönlü layihələr sırasında "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" və s. layihələri xüsusi olaraq vurğulamaq lazımdır. Heydər Əliyev Fondunun "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihə çərçivəsində müvafiq dərman preparatları Azərbaycan Diabet Cəmiyyəti vasitəsilə şəkərli diabet xəstələrinə verilir. Fondun dəstəyi ilə ölkəmizdə uşaqlar üçün qastroenteroloji sanatoriya, psixo-nevroloji mərkəz istifadəyə verilmişdir. Paytaxt və regionlarda mütəmadi olaraq qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqlar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir.

Fond tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasında yaxından iştirak edir. Onu da bildirək ki, səhiyyəyönümlü layihələr sırasında Heydər Əliyev Fondunun fəaliyyətində uşaqlar arasında mövcud olan talassemiya xəstəliyinin qarşısının alınması üçün preventiv tədbirlər, maarifləndirmə işlərinin aparılması, qan testlərinin keçirilməsi, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı məsələlər də yer alır.

Paytaxtımızda inşa olan Talasamiya Mərkəzi Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirildi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən və bu gün həmin xəstəliyə düçar olanların ümid yerinə çevrilən mərkəz Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunub. Burada quraşdırılan avadanlıqlar müalicənin ən yüksək səviyyədə aparılmasına şərait yaradır. Bütün bunlarla yanaşı, Fond səhiyyənin müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi işində də yardımçı olur, təbabətin ən müasir metod və nailiyyətlərindən istifadə üçün beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirir. Bu əməkdaşlıq əsasında artıq bir neçə lokal layihə həyata keçirilmişdir. Səhiyyə sahəsində görülən işlər, həyata keçirilən layihələr Heydər Əliyev Fondunun əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrdir. Bu qayğı humanizmin ən nümunəvi göstəricisidir.

Xüsusi olaraq vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondu Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərə də töhfə olaraq Koronavirusla Mübarizəyə Dəstək Fonduna 500 min manat vəsait köçürdü. Heydər Əliyev Fondu daim himayəsində saxladığı bir sıra müəssisələrə koronavirusla mübarizə sahəsində dəstək göstərdi. Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, Fond tərəfindən Bakıda və regionlardakı körpələr və uşaq evlərinə, internat məktəblərinə, pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə, Uşaq Psixonevroloji Mərkəzə, eləcə də Bakıdakı və regionlardakı psixonevroloji sosial xidmət müəssisələrinə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələr, maskalar və digər qoruyucu vasitələrdən ibarət yardımlar ayrıldı. Heydər Əliyev Fondu minlərlə insanın qəlbində bir ümid çırağı yandırıb. Mehriban xanım Əliyevanın mərhəməti, xeyriyyəçiliyi, humanizmi bu münasibətin formalaşmasına səbəb olub.

Azərbaycanın işğaldan azad olunan ərazilərinə Azərbaycan Prezidenti İlham Əliyevlə birgə səfərlərindən tarixi və əzəli torpaqlarımızla bağlı etdiyi paylaşımları hər kəsdə maraq oyadır. Son illərin tarixi gerçəkliklərinə nəzər salsaq görərik ki, O, həqiqətən də xalqla birgə yaşayır. Vətən müharibəsi dövründə bunun bir daha şahidinə çevrildik. Mehriban xanım Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ömür-gün yoldaşı olmaqla yanaşı, onun məslək yoldaşı və silahdaşıdır. Hər zaman bərabər addımlayan ehtibarlı silahdaş. Qarabağ torpaqlarının erməni işğalından azad olunması yolunda 44 günlük müharibədə Mehriban Əliyeva hər qələbə sevincini xalq ilə birgə yaşadı. Şəhid analarının kədərini bir ana kimi yaşadı, şəhid anaların yanında oldu, onlara təsəlli verdi. Qazilərimizə mərhəmət əlini uzatdı. Həssas qəlbi, iradəsi ilə bütün hadisələrə münasibətində onun xalqa sevgisini, məhəbbətini görürük. Azərbaycan həqiqətlərinə laqeyd qalmır.

## AZƏRBAYCAN İNCİLƏRİ DÜNYANIN NADİR İRS SİYAHISINDA

Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər də diqqətdən kənarda deyil. Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafında, dünyada təbliğində əvəzsiz xidmətləri vardır. Azərbaycanın Birinci Xanımı ölkəmizdə müntəzəm olaraq keçirilən müxtəlif beynəlxalq mədəniyyət tədbirlərinin və festivallarının təşkilində mühüm rol oynayır. Beynəlxalq muğam festivalı və muğam ifaçılarının müsabiqəsi, M.Rastropoviç adına, eləcə də D.Şostakoviçin və Bülbülün yubileylərinə həsr edilmiş beynəlxalq festivallar, Qəbələ Musiqi Festivalı, Aşıqların Beynəlxalq Festivalı kimi tədbirlər məhz Mehriban Əliyevanın yaxından dəstəyi ilə həyata keçirilib. Bakıda Beynəlxalq Muğam Teatrının, Müasir İncəsənət Muzeyinin binaları tikilib, açıq səma altında "Qala" arxeoloji-etnoqrafik muzey kompleksi yaradılıb.

Azərbaycanın maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəricilərdir. Belə ki, hazırda muğam ifaçılığı sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılığı sənəti, "Kəlağayı simvolizmi və ənənəvi sənəti" və s. YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ Atüstü Oyun ənənəsi isə YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Mehriban xanım Əliyeva Azərbaycan həqiqətlərinin təbliği sahəsində gördüyü işlər əvəzsizdir. Qərb və Şərq sivilizasiyalarının kəsişməsində yerləşən qədim ölkə - Azərbaycanın mədəniyyətinə, milli dəyərlərinə bu şəkildə yanaşma yetişən nəsildə mövcud dəyərlərə məhəbbət yaradır. Qərblə Şərqin qovuşuğunda yerləşən Azərbaycan və onun paytaxtı Bakı bir çox dövrlərdə dünya mədəni irsinə layiqli töhfələr vermişdir. Bu proses indi də davam edir. Bu gün Bakı Şərqin bütün gözəlliklərini özündə əks etdirən Qərb şəhəri kimi, yaxud da Qərb cazibəsini özündə əks etdirən Şərq paytaxtı kimi qəbul olunur. Azərbaycanın zəngin tarixi boyunca onun nadir coğrafi mövqeyi burada nümunəvi mədəniyyətin yaranmasına, müxtəlif etnik, dini və mədəni köklərə malik xalqların hüquq və azadlıqlardan bərabər istifadə etməsinə imkan verən çoxəsrlik tolerantlıq mühitinin formalaşmasına xidmət etmişdir. Mehriban xanım Əliyevanın dediyi kimi, Azərbaycanın mədəniyyəti dünyada ən qədim mədəniyyətlərdən biri hesab edilir və ölkədə əsrlər boyu yaşayan xalqların müxtəlif adət-ənənələrini özündə birləşdirir. Bu ilkin şərtlər əsrlər boyu ölkədə fəlsəfi-ədəbi fikrin, poeziyanın və memarlığın, habelə ölkənin maddi və mənəvi irsinin rəmzi olan təsviri sənətin çiçəklənməsinə gətirib çıxarmışdır. Mövcud mədəniyyət formaları Azərbaycanın özünəməxsusluğunun əsasını təşkil edir və Azərbaycan xalqının həyatında mühüm əhəmiyyət daşıyır.

Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin dünyada, o cümlədən Avropada tanıdılması və təbliği istiqamətində həyata keçirdiyi davamlı fəaliyyəti öz əks-sədasını verir. İnsanlar, xalqlar bir-birini məhz mədəniyyət yolu ilə daha yaxşı tanıyırlar, bir-birini daha dərindən öyrənirlər və bu da ümumiyyətlə, ölkələr arasında mövcud olan əlaqələrin inkişafında çox vacib rol oynayır. Əminliklə deyə bilərik ki, son illərdə Azərbaycan dövlətinin, eləcə də Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən irimiqyaslı beynəlxalq tədbirlər, layihələr Azərbaycanı mədəniyyətlərarası dialoqun tanınmış beynəlxalq mərkəzinə çevirib.

*Nəzakət BAYRAMOVA*

# “Sirli vasitəçilər”

## "The Economist": Qafqaz və Mərkəzi Asiya ölkələri Rusiyaya qarşı sanksiyaları ələyə çeviriblər

***ABŞ Rusiyaya, İrana, Türkiyəyə, Çinə, Belarusa, bir sözlə kimdən xoşu gəlmirsə ona sanksiya tətbiq edir. Yəni, mənim tərtibatımdan kənara çıxanların aqibəti dünya birliyindən təcridlə yekunlaşacaq. İran 1979-cu il İslam inqilabından, Şimali Koreya yarandığı gündən, Rusiya isə Ukrayna müharibəsindən sonra Vaşinqtonun sanksiyaları altında yaşamaqdadırlar. Buna baxmayaraq, dünyanın əksər ölkələri sanksiyalara bir o qədər də əhəmiyyət vermirlər və həmin ölkələrlə ticari əməliyyatlarını aparmaqdadırlar. Təkcə Qərb ölkələri ABŞ-ın sanksiya tələblərinə boyun əyməkdədirlər. ABŞ-ın tətbiq etdiyi sanksiyalara tuş gələn ölkə Rusiyadır. Hərçənd şimal qonşumuz bundan bir o qədər də narahat görünmür, amma problemlərin olmadığını da demək olmaz.***

ABŞ Rusiyaya sanksiyalarla təsir etməyin mümkünsüz olduğunu görüb, bu dəfə başqa üsula əl atıb. Rusiya ilə ticarət aparan ölkələrə xəbərdarlıqlar bunu deməyə əsas verir ki, məqsəd həmin ölkələri bundan çəkindirməkdir. ”The Economist” yazır ki, Qazaxıstan və bir sıra digər Orta Asiya respublikaları həm Rusiya, həm də Avropa ilə ticarətin sirli çiçəklənməsi dövrünü yaşayır. Broker sövdələşmələrində bum və Aİ-dən regiona qadağan olunmuş malların ixracında sürətli artım müşahidə olunub. Amma görünür, Avropa sanksiyalardakı boşluqları düzəltməyə tələsmir.



### Sanksiyalar getdikcə sızan ələyə bənzəyir

Rusiya Xarici İşlər Nazirliyinin yüksək rütbəli rəsmisi Dmitri Biriçevski keçən həftə bildirib ki, Rusiya Qərbin sanksiyalarının onilliklər boyu davam etməsinə hazırdır. Ancaq faktlar problemin o qədər də ciddi olmadığını göstərir. İqtisadiyyat sürətlə inkişaf edir: illik nisbət ikinci rübdə 4% təşkil edib, əvvəlki rübdə inanılmaz 5,4%-ə çatıb - və bu, tarixin ən sərt sanksiyalarına baxmayaraq. Ticarət çiçəklənməyə davam edir. Necə yəni?

Bunu başa düşmək üçün Qazaxıstana nəzər salaq. Keçən il Mərkəzi Asiya respublikasının texnologiya sənayesi ”partlayıb”. Ukraynada münaqişə başlayandan bəri Avropa firmalarına məhsullarının əksəriyyətini Rusiyada satmaq qadağan edilib, baxmayaraq ki, onlar əvvəllər texnologiyanın ən böyük təchizatçıları idilər. Lakin Qazaxıstanın kiçik texnologiya sənayesi - 2021-ci ildə yüz milyon dollarlıq istehsal potensialına malik cəmi 50 firma - bu boşluğu doldurmuş kimi görünür. Qazaxıstanın Rusiyaya ixracının həcmi 2021-ci ildəki 40 milyon dollardan 2023-cü ildə 298 milyon dollara yüksəlib. Təbii ki, hər şey o qədər də hamar deyil. Avropadan elektronika idxalı da 250 milyon avrodan (273 milyon dollar) 709 milyon avroya yüksəlib. Möcüzəvi şəkildə genişlənən qazax firmalarıdır, yoxsa rusiyalılar köhnə Avropa təchizatçılarına yol açıblar? Özünüz mühakimə edin.

Qazaxıstan Ukraynada xüsusi əməliyyat başlayandan bəri həm Rusiya, həm də Avropa ilə ticarətin müəmmalı şəkildə çiçəkləndiyi bir neçə ölkədən biridir. Astananı Ermənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və digər dörd Orta Asiya respublikası müşayiət edir. Avropa İttifaqının yuxarıda qeyd olunan ölkələrə ixracı 2023-cü ildə 46 milyard avro artıb ki, bu da 2021-ci ilə nisbətən 50% çoxdur. Bu, 2021-ci ildən 2023-cü ilə qədər Avropanın Rusiyaya ixracının azalmasının dörddə üçünə bərabərdir.

Birbaşa hərbi yardımla yanaşı, sanksiyalar Ukraynanın hərbi kampaniyasına Qərbin əsas töhfəsidir, lakin uzaqmənzilli raketlərdən fərqli olaraq, hələlik o qədər də böyük ziyan vurmayıb. İki il yarımlıq sanksiyalardan sonra Rusiya iqtisadiyyatı möhkəmlənir. Hansı Avropa firmalarının yeni məhdudiyyətlərə sadəcə olaraq ağılla uyğunlaşdığını, hansının isə sanksiyalardan zərərli şəkildə yan keçdiyini söyləmək çətindir. Ancaq tez-tez olduğu kimi, üçüncü ölkələr vasitəsilə ticarət əsasən qadağan olunmuş mallar hesabına artıb. Avropalı siyasətçilər çarəsiz şəkildə sanksiyalardakı dəlikləri möhürləməyə çalışırlar, lakin bunun üçün bəlkə də ən amansız şəkildə qonşu ölkələrlə sərt danışmalıdırlar.

Vasitəçilik ticarətində bum üç axından ibarətdir. Birincisi, sanksiyaları açıq şəkildə pozan qadağan olunmuş mallardır. Aİ ən sonuncusu iyunun 24-də olmaqla ümumilikdə 14 sanksiya paketi qəbul edib. Döyüş meydanında istifadə oluna biləcək hər şeyin Rusiyaya ixracını qadağan edirlər. Bu siyahıya yarımkeçiricilər və dronlar, həmçinin bilyalı podşipniklər və mikrodalğalı sobalar daxildir. Londonda yerləşən Kral Birləşmiş Xidmətlər İnstitutunun məlumatına görə, 2022-ci ilin fevral-avqust aylarında Rusiyanın aldığı hərbi texnikanın yarıdan çoxunda Avropa və ya Amerika istehsalı olan komponentlər var.

Belə ki, Aİ-nin Qazaxıstan və Ermənistana ixracatında ən sürətli artım ən sərt sanksiyalara məruz qalan kimya, elektronika və istehsal avadanlıqlarından əldə edilib. Aİ-dən Qazaxıstana istehsal avadanlığının ixracı 2021-ci ildən 2022-ci ilə qədər iki dəfə artıb, daha sonra 2023-cü ildə daha 23% artaraq 6,4 milyard avroya çatıb. Ermənistan 2021-ci ilə nisbətən 2023-cü ildə Avropadan iki dəfə çox kimyəvi maddə, Avropadan beş dəfə çox informasiya texnologiyaları avadanlığı və dörd dəfə çox elektronika idxal edib.

Amma rəsmi ticarət statistikasına daxil olmayan qaçaqmalçılıq məhsulları da var. Rusiyaya gedən yolda tədarüklər bir sıra vasitəçilərdən keçə bilər. Türkiyə və Orta Asiyadakı bəzi ixracatçılar göndərdikləri malların haradan gəldiyini həqiqətən də bilmirlər, digərləri isə bunu yaxşı bilirlər. Keçən il Amerika Rusiyanın ”Mayak” konqlomeratı tərəfindən Özbəkistan və Ermənistan vasitəsilə qadağan olunmuş avadanlıqların tədarükü üçün təşkil edilmiş bütün Avropa firmaları şəbəkəsinə qarşı sanksiyalar tətbiq etdi. İyun ayında Avropa alət istehsalçılarının Rusiyaya tədarük edən iki şəbəkəsi aşkar edildi: biri Rusiya dövlət şirkəti Ostek üçün Türkiyə vasitəsilə, digəri isə Rusiyanın aerokosmik şirkəti Newton-ITM üçün Qırğızıstan vasitəsilə.

Dolayı satışların artmasının ikinci səbəbi Rusiyanın 2022-ci ildən etibarən yük maşınlarının birbaşa Aİ-yə daxil olmasını qadağan etməsidir. Avropa bloku ölkələri kənd təsərrüfatı məhsulları kimi bir sıra malların Rusiyaya ixracına icazə versələr də, hazırda tədarükçülər həll yollarını seçməlidirlər. Aİ bundan narahat deyil: artan nəqliyyat xərcləri özlüyündə Rusiya ilə ticarətə mane olur, lakin ondan birbaşa asılı olan şirkətlərin sağ qalmasına mane olmur. Rəsmi məlumatlara görə, 2021-ci ildən 2023-cü ilə qədər Avropadan Qazaxıstana kənd təsərrüfatı məhsullarının həcmi iki dəfə artıb. Lakin üçüncü tendensiyanın öhdəsindən gəlmək Avropa üçün ən çətin olacaq. Bunun arxasında üçüncü ölkələrdə istehsal bumu dayanır. Üçüncü ölkələrin firmaları xammal və komponentləri Avropadan, o cümlədən tamamilə qanuni yolla idxal edirlər. Sanksiyalar hələ də tekstil, çuqun və termal emal olunmamış polad kimi bir sıra ixrac məhsullarına təsir etməyib.

Amma hətta ticarətə icazə verilən hallarda belə, maliyyə sanksiyalarını pozmadan ödəniş etmək çətindir. Rusiyanın dövlət şirkətləri ilə demək olar ki, bütün növ əməliyyatlar qadağandır. Avropa banklarının əksər Rusiya bankları ilə qarşılıqlı əlaqəsi qadağandır. Rusiyanın iri bankları maliyyə mesajlarının mübadiləsi üçün SWIFT şəbəkəsindən ayrılıb. Nəhayət, şirkətlərə Aİ-nin qara siyahısında olan firmalar və hüquqi şəxslərlə təmasdan qaçmaq əmri verilir - onların sayı artıq 2200-dür.

Hərbi əməliyyatlar başlamazdan əvvəl Türkiyə Avropaya ən böyük məişət texnikası tədarükçülərindən biri idi. Amerika bu gün türk firmalarının Rusiya üçün dron və mikroelektronika istehsal etdiyindən şübhələnir. Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndəsinin sözlərinə görə, bəzi növ sursatlar üçün metallar Avropada əridilə bilər. Avropadan Qazaxıstana ofis avadanlığı idxalı 2021-ci ildən 2023-cü ilə qədər üç dəfə artaraq, demək olar ki, bir milyard dollara çatıb. Görünür, bu, daha çox yeni şirkətlərin və fabriklərin kütləvi şəkildə açılması ilə bağlıdır. Qazaxıstana sərmayələr 2023-cü ildə 11% artıb ki, bu da əsasən Rusiya şirkətlərinin payına düşür.

Adamda belə bir hiss yaranır ki, rəqabətdə üstünlük Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin əlinə keçir. Ümumilikdə beş Mərkəzi Asiya respublikasının iqtisadiyyatı 2022-ci ildəki 4%-dən 2023-cü ildə 6%, Ermənistanın iqtisadiyyatı isə 2022-ci ildəki 5%-dən 8% artıb. Yük daşımalarının hər il 20% artması ilə bir gecədə inkişaf edən logistika sektoru yaranıb.

Bütün bunlar avropalı siyasətçilər üçün pis xəbərdir. ”Əlbəttə, biz bu və ya digər formada sızma gözləyirdik” deyə bir məmur etiraf edib, ”amma bu miqyasda deyil!”. Dekabr ayında Aİ-nin on ikinci sanksiyalar paketi ilk dəfə Ermənistan və Özbəkistandakı şirkətlərə təsir etdi. O vaxtdan bəri bürokratlar üçüncü ölkələri və avropalı ixracatçıları yeni sanksiyalarla hədələsələr də, yalnız az sayda firmaya qarşı real tədbirlər görüblər. Qara siyahıdakı hər bir şirkət üçün yenisi həmişə haradasa qeydə alınır. Effektiv həll yolu üçün avropalılar Cənubi Qafqaz və Mərkəzi Asiya hökumətlərinə müraciət etməli olacaqlar və bu, asan məsələ deyil. Regional siyasətçilər Rusiyaya yaxınlıqlarını qiymətləndirirlər və çox vaxt qaydaları pozaraq şəxsi mənfəət əldə edirlər. Ancaq bunun müqabilində avropalılar onlara ”yaxşılıqlar” təklif edə bilərlər. Məsələn, bu yaxınlarda Aİ 270 milyon avro yardım, kredit və müqavilələr ayırdıqdan sonra Ermənistan Rusiya ilə ticarət aparan firmaları bağlamağa başladı.

Alternativ olaraq, Avropa çubuq yerinə kökdən istifadə edə bilər. O, embarqonu üçüncü ölkələrə də uzada bilər və ya onların banklarının fəaliyyətini məhdudlaşdıra bilər. Bununla belə, bu, Avropanın qalan qaz tədarükçülərini (Azərbaycan) qəzəbləndirir və Avropa firmalarına zərər vurur. Söhbət ondan ibarətdir ki, Aİ Ukrayna üçün sərt sanksiyaların faydalarının xərclərdən çox olduğuna inanırmı? Hazırkı yanaşmadan aydın olur ki, yox.

**V. SALAH**

# Bakıdan ünvanlanan SƏRT MESAJ

Rusiya liderinin ölkəmizə səfəri heç də təsadüfi sayılmır və görünən odur ki, Kreml üçün də bu rəsmi səfər böyük əhəmiyyət kəsb edir. Prezident Vladimir Putinin məhz ölkəmizə səfəri çərçivəsində cənab Prezident İlham Əliyevlə görüşü zamanı Azərbaycan ilə Ermənistan arasında gözlənilən sülh danışıqları prosesinə dəstək ifadə etməsi də heç təsadüfi, əbəs yerə deyil və ələlxüsus ondan xəbər verir ki, bu, elə Moskvanın da maraqları ilə üst-üstə düşür. Çünki rəsmi Moskva artıq çoxdan qəbul edib ki, bölgədə sülhün bərqərar olması ilə, təhlükəsizliyin təmin edilməsi ilə, stabilliyin yaradılması ilə Qərbin Cənubi Qafqaza soxulmaq, müdaxilə etmək, hətta rusları bölgədən sıxışdırıb çıxarmaq niyyəti də, arzusu da belə dərhal puç olmuş olur. Daha dəqiq desək, Rusiya Prezidentinin Azərbaycana səfər etməsi ilə və səfər çərçivəsində Bakı və İrəvan arasında gözlənilən sülh danışıqları prosesinə dəstək ifadə edilməsi ilə, bölgəyə burun soxmağa, Ermənistanı silahla təmin edib qızışdırmağa, müharibəyə, toqquşmalara, münaqişəyə təhrik edənlərə əlbəttə ki, regionda mühüm qərarları vermək iqtidarında olan, lider dövlət olaraq geosiyasi iradə sahibi sayılan ölkənin Azərbaycan olduğu barədə çox sərt bir mesaj verilir.




### Regionda geosiyasi proseslərin inkişaf istiqamətlərinin məhz Bakı tərəfdən müəyyən olunması özü həqiqətən də ədalətlidir

Cənubi Qafqazda geosiyasi mübarizə artıq çoxdandır ki, özünü göstərməkdədir. Bir çox ölkələrin, məsələn, ABŞ, Fransa kimi ölkələrin regionda özünə yer eləmək niyyəti artıq gizlədilmir də. Maraqlar naminə müxtəlif çirkin əməllətə əl atılır, hətta marionet ölkə olan Ermənistan da silahlandırılaraq, bir çox ölkələrin əlində alət kimi istifadə edilir. Həmin ölkələr, eləcə də Avropa Birliyi tərəfindən Cənubi Qafqazda mövqe əldə etmək, yerləşmək üçün ciddi cəhdlə mücadilə edilir və hətta Rusiyanı da bölgədən sıxışdırıb çıxarmaq üçün bütün mümkün cəhdlər də göz önündədir. Göz önündə olan odur ki, bir müddətdir Cənubi Qafqaz dünyanın bir çox nəhəng dövlətlərinin qarşıdurmaları üçün sanki poliqon hesab olunur və hətta regionumuzu poliqona çeviriblər də.

Unutmaq, yaxud nəzərə almamaq olmaz ki, regionda şəriksiz lider və geosiyasi iradə sahibinin məhz Azərbaycan olduğu qəbul edilməkdədir. Başqa şəkildə qəbul etmək mümkün də deyil. Çünki həqiqətən də ölkəmiz Cənubi Qafqazın lider ölkəsidir və qərar sahibi də Azərbaycandır. Azərbaycan regionda sülh, əmin-amanlıq, sabitlik, stabillik üçün kifayət qədər töhfələr verib və bundan sonra da belə töhfələr vermək iqtidarındadır, belə bir potensiala sahibdir. Məhz bu nöqteyi-nəzərdən baxdıqda görürük ki, regionda geosiyasi proseslərin inkişaf istiqamətlərinin məhz rəsmi Bakı tərəfdən müəyyən olunması özü həqiqətən də ədalətlidir. Lakin ABŞ və Fransa kimi ölkələrin müxtəlif yollarla, məsələn, Ermənistanı silahlandırmaqla, silahla təmin etməklə regionumuza burun soxmaları heç də ədalətli deyil. Elə bu, ən böyük ədalətsizlikdir.

### Özünün geosiyasi baxışını yeniləmək niyyəti özü də bir sərt mesaj hesab olunur

İstənilən zaman kəsiyində, ələlxüsus da indiki məqamda ruslar üçün erməniləri idarə etmək", "susdurmaq" heç də çətin deyil. Ona görə ki, rusların əlində elə rıçaqlar var ki, onunla hayları nə vaxt istəsələr susdura, idarətməni belə əllərinə ala bilərlər. Maraqlı məqam da odur ki, ruslar hayların nəinki onlara, bütövlükdə hamıya qarşı xəyanətkar olduqlarını bilə-bilə heç də aqressiv münasibət sərgiləmirlər. Elə ermənilər də bir qədər buna görə cəsarətlənirlər. Amma unudurlar ki, ermənilərin ərazilərimizdə, indiki İrəvan ərazilərində necə məskunlaşmalarına, daha doğrusu, necə məskunlaşdırılmalarına hələlik bir aydınlıq gətirilmir. Əvvəla, ruslar təkcə elə buna aydınlıq gətirsələr ermənilər öz uydurmaları, öz yalanları ilə birdəfəlik arxivə düşmüş olurlar. Digər tərəfdən də axı Ermənistan istənilən bir sahədə Rusiyadan asılı vəziyyətdədir. Əslində, Ermənistan bütün sahələr üzrə tamamilə Rusiyadan asılı vəziyyətdə olan süni şəkildə yaradılmış qondarma bir dövlətdir axı. Belə bir asılı dövlət Rusiyanın "xeyir-duası" olmadan necə Qərbə üz tuta bilər? Bir halda ki, Ermənistan Rusiyanın təsir dairəsindən çıxa bilmirsə, deməli, ermənilərin xəyalları elə xəyal olaraq da qalmalıdır və qalacaq da. Təbii ki, əgər özləri qalmış olsalar.

Sözsüz ki, hələ də Rusiyanın başı Ukraynaya qarışıb və rusların haylara ayıracaq nə vaxtı var, nə də hövsələləri. Amma bu o demək deyil ki, ermənilər xəyanətkarlıqlarına görə cavab verməyəcəklər, əksinə, ən tez zamanda belə bir cavabdehlik qarşısında olacaqlarına zərrə qədər də şübhə yoxdur. Belə bir cavabdehlik qarşısında qalan, dünyanın ən hegemon dövlətlərindən biri olan Rusiyanın ilk addımdaca Ermənistanı yer üzündən silməsi də təkzib edilə bilməz. Amma Rusiya hələ də hayları guya ki, görmür. Ola bilsin ki, Ukrayna münaqişəsi bitdikdən sonra Moskva İrəvanı bircə addımdaca yerində otuzduracaq. İndi isə, hələlik bir kənardan seyr edir və zamanını gözləyir. Gözləyir ki, əgər Ermənistan səhvini anlamazsa, deməli, tədbir görülməlidir və hadisələrin gedişi göstərir ki, belə bir "tədbir" görüləcək də. Lakin Rusiya hələ də tələsmir və özünün geosiyasi baxışını yeniləmək niyyətindədir və bunu həmin ölkənin davranışlarından da görmək çətin deyil. Belə bir niyyətin bəyan edilməsi özü də sərt mesaj sayılır, çünki qarşı tərəfə ünvanlanıb.

### Putinin Azərbaycana səfərini geosiyasi mesaj kimi qəbul oluna bilən manevr hesab edənlər də az deyil

Hayların xəyanətkarlıqlarına cavab verməyi təxirə salan Rusiya Qərbin cavabını verməyi daha aktual, daha vacib hesab edir. Ruslar onları sıxışdırıb regiondan, Cənubi Qadqazdan çıxarmaq istəyənlərin cavabını verməyə daha çox yer ayırırlar. Kremlin Azərbaycanla münasibətləri daha da inkişaf etdirməyi üstün tutması özü də Qərb üçün bir cavab bir mesajdır. Bu, əlbəttə ki, tamamilə məntiqi bir mesaj hesab olunur. İlk öncə ona görə ki, Rusiya liderinin səfəri və səfər çərçivəsində Azərbaycanla münasibətlərə önəm verdiyini bəyan etməsi, İrəvanla Bakı arasıdan gözlənilən sülh prosesini dəstəkləməsi kollektiv Qərbə bir cavab, bir mesaj kimi qəbul olunur. Yəni, daha sadə dillə desək, ruslar mesaj verirlər ki, heç də Qərb burnunu regiona soxa, Rusiyanı sıxışdırıb çıxara bilməzlər. Ona görə bilməzlər ki, söz sahibi də, qərar sahibi də onlar yox, Azərbaycandır. Putin Azərbaycana səfəri ilə mesaj vermək istəyir ki, Qərbin niyyətini hesaba belə almır. Həm də çatdırır ki, hesaba alınmalı olan marionet ölkə sayılan Ermənistan yox, müstəqil, suveren, güclü və qüdrətli dövlət olan Azərbaycandır və əlaqələrini də məhz Bakı ilə qurur, günü-gündən də inkişaf etdirir. Diqqətə çatdıraq ki, Putinin Azərbaycana səfərini geosiyasi mesaj kimi qəbul oluna bilən manevr hesab edənlər də az deyil.

### Mesaj ondan ibarətdir ki, Azərbaycan özü öz məsələlərini həll etmək iqtidarında, əzmindədir

Nəzərə alsaq ki, Azərbaycan və Rusiyanın Cənubi Qafqazda ortaq maraqları mövcuddur və hər iki dövlət Şimal-Cənub dəhlizinin işə salınmasına böyük əhəmiyyət verir, deməli, Azərbaycanın özü də Rusiya liderini qəbul etməklə, bölgədə heç də tək olmadığı barədə Bakıdan çox ciddi mesajlar unvanlamış olur. Həm də unutmaq lazım deyil ki, Rusiya məhz Azərbaycanla Ermənistanın vasitəçisiz ikitərəfli danışıqlar aparmasını dəstəkləyir. Deməli, rəsmi Bakının təklifini dəstəkləyən Rusiya kimi bir ölkənin olması özü də diqqətdən yayınan məqam deyil. Hər halda, Rusiya və Azərbaycan liderlərinin görüşü, həmin görüşün Bakıda reallaşması, müzakirələrin aparılması, xüsusən də Azərbaycan və Ermənistan arasında gözlənilən sülh danışıqlarının Putin tərəfindən dəstəklənməsi bizim üçün sıradan bir hadisə sayıla bilməz. Əvvəla ona görə ki, iki qonşu ölkənin öz aralarında vasitəçisiz danışıqlarının artıq başqalarının məsələyə burun soxmasına heç də ehtiyac qalmadığı anlamına gəlir. Daha dəqiq desək, belə bir hal imkan vermir ki, ABŞ kimi, Fransa kimi ölkələr Ermənistan üzərindən bölgəyə soxulmaq bəhanəsi əldə etsinlər. Halbuki, hər iki ölkə, yəni Amerika da, Fransa da məhz sülhə guya vasitəçilik niyyətini ortaya ataraq, regionda özünə yer etməyə çalışır. Amma, bu dəfə məhz Rusiya Prezidenti ilə Azərbaycan Prezidenti görüşdüyü zaman sözügedən məsələnin xüsusilə vurğulanması, dəstəklənməsi məqsədə uyğun olan bir haldır. Belə bir məqam Azərbaycanın özünün də nəinki hansısa ölkələrə, bütövlükdə dünyaya mesajıdır. Mesaj da ondan ibarətdir ki, Azərbaycan özü öz məsələlərini həll etmək iqtidarında, əzmindədir və bunu Rusiya kimi dünyanın nəhəng ölkələrindən biri, onun dövlət rəhbəri, prezidenti də qəbul edirsə, deməli, kənar müdaxilələrə heç ehtiyac yoxdur.

***İnam Hacıyev***

# Aqrar sığorta nədir, nə vəd edir?

## 1200 manat dəyərində məhsul verən 1 hektar taxıl sahəsinin sığortalanması fermerlərə 6-12 manata başa gəlir

***Kəndlinin alın təri ilə suvarılan, zəhməti ilə böyüyən, əməyi ilə biçilən məhsulların bir də biçilməməsi halı var. Çünki kənd təsərrüfatı çoxsaylı və müxtəlif risklərin olduğu sahədir. Kəndli əkdiyini həmişə biçə bilmir, çünki əkinlərin məhsuldarlığı və fermerlərin gəlirləri böyük həcmdə hava şəraitindən asılıdır. Leysan, dolu, şaxta kimi təbiət hadisələrində kəndlinin əkini də təhlükədə olur.***

### Kəndliyə ən çox dolu zərər verir

Müşahidələr göstərir ki, bütün dövrlərdə əkinçiliyə ən böyük zərəri dolu vurub.Dolu əkin sahələri ilə yanaşı, kolları, tingləri, ağacların budaqlarını məhv edir, hətta bəzən dolu yağması nəticəsində quşlar da tələf olurlar. Evlərin damı, avtomobillər belə doludan ciddi formada zərər görə bilir. Dolu yağması əkinlərə təkcə fiziki zərər vurmur, dolunun bitkinin qabığını zədələməsi nəticəsində, burada yeni xəstəliklər, o cümlədən göbələk xəstəlikləri ortaya çıxır və əkinə düzəlməyən zərər dəyir. Beləliklə, kəndlinin min bir əziyyətlə böyütməyə çalışdığı məhsulun 70-100%-i itirilir.





Qeyd edək ki, dolu ən çətin proqnoz edilən hadisədir. Hansı əraziyə dolu düşüb-düşməyəcəyini əvvəlcədən proqnozlaşdırmaq müşküldü, bəzən hətta dəqiq proqnoz olduqda belə, bu hadisənin qarşısını almaq faktiki olaraq mümkünsüzdür. Təb bizim ölkədə deyil, dünyada kənd təsərrüfatı sektorunda dolu yağmasının böyük zərərləri ilə bağlı misallar minlərlədir. 2010-cu ildə isə Kanadanın Alberta vilayətində dolu 90 min hektar əkin sahəsini məhv edib, dəyən zərər 18,5 milyon dollar təşkil edib. 2013-cü ildə ABŞ-ın Montana ştatında dolu yağması kənd təsərrüfatı sahəsinə 14 milyon dollarlıq zərər vurub. Bu həmin ştatda 98 illik doludan sığorta proqramı üzrə qeydə alınan ən böyük ödəniş olub. 2015-ci ildə Avstraliyada dolu yağması bitkiçilik və əkin sahələrinə 250 milyon dollar zərər vurub. Bu hadisə nəticəsində təkcə qida bitkiləri deyil, həm də böyük pambıq sahələri məhv olub.

### Azərbaycanda doludan qorunmaq kəndliyə neçəyə başa gəlir?

Azərbaycanda dövlət dəstəyi ilə yeni tətbiq edilən aqrar sığorta mexanizmi əkin sahələrini doludan da sığortalamağa imkan verir. Orta rəqəmlərə əsasən, 1200 manatlıq taxıl yığılan 1 hektar sahənin sığortalanması ölkənin əksər ərazilərində fermerlərə 6-12 manata başa gəlir. Sığortalanan təsərrüfatlarda dolu vurma və digər sığorta hadisəsi baş verdikdə 10% azadolma məbləği sıxılaraq zərərin 90% həcmində sığorta ödənişi edilir.

Bəzi hallarda dolu yağması məhsulu məhv etməsə də, onun qabığına zərər vuraraq xarici görünüşünü korlayır. Nəticədə məhsul itirilməsə də, görünüşünü korlandığına görə, onun satışında problem yaranır, fermer onu qat-qat ucuz satmağa məcbur olur və böyük zərərə düşür. Azərbaycandakı aqrar sığorta ilə fermerlər öz məhsullarını bu riskdən də qoruya bilərlər. portağal, limon, naringi kimi meyvələri dolu vurması nəticəsində əmtəə görünüşünün itirilməsi və qiymətin aşağı düşməsi riskindən sığorta etmək olar. Bu zaman itirilən qiymət fərqinə görə Aqrar Sığorta Fondu tərəfindən sığorta ödənişi edilir. Bu sığorta tarifi məhsulun qiymətinin 1-2%-i arasında dəyişir, üstəlik sığorta haqqının yarısını da dövlət ödəyir.

Əvəzində fermerlər qiymətdə itirdikləri məbləğin 90%-ni ödəniş şəklində geri ala bilərlər. Məsələn, Lənkəranda məhsulunun ümumi qiyməti 25 min manat olan portağal bağını bu riskdən sığortalamaq üçün sığorta haqqı 260 manat təşkil edir. Fermer bu məbləğin yarısını - 130 manat ödəyir.

Sahəni dolu vurması nəticəsində portağalın qabağına dəyən zərər onun əmtəə görünüşünü korlayır və satışında poblem yaradır. Bunun nəticəsində, məsələn, kiloqramı 1 manat olan portağalın qiymət 50 qəpiyə enirsə, fermerin üzləşdiyi hər kiloqramda 50 qəpik, ümumi sahədən isə 12 500 manatlıq qiymət itkisi zərərinin 90%-i, yəni 11 250 manat kompensasiya edilir. Yəni Aqrar Sığorta Fondu ona bu məbləği ödəyir. Belə sığorta təkcə yerli bazara deyil, xaricə məhsul ixrac edən təsərrüfatlar üçün xüsusilə vacibdir və onları böyük itkilərdən qoruya bilər.

### Sığortalanmaq üçün nə etməli?

Sığorta müqaviləsi bağlamaq istəyən şəxsin təqdim etdiyi məlumatların doğruluğu həmin gün ərzində vasitəçi aqrar sığortaçı tərəfindən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTIS) olan məlumatlarla müqayisə edilərək yoxlanılır. EKTİS-də qeydiyyatdan keçdikdən sonra müvafiq sığorta şirkətinə sığortalanmaqla bağlı müraciət edilməlidir. İdarəedici qurumun məsul əməkdaşı ona təqdim edildiyi sənədlər və məlumatlar əsasında müqavilə bağlanması barədə qərarını Fondla razılaşdırmalıdır.

Müqavilənin bağlanmasına razılıq verildiyi halda müstəqil eskpert tərəfindən sığorta predmetinə baxış keçirilir. İdarəedici qurumun məsul əməkdaşı müstəqil ekspert tərəfindən göndərilmiş məlumat və sənədləri təhlil edərək sığorta müqaviləsinin bağlanılıb-bağlanılmaması barədə qərar qəbul edir. Sığorta risklərini və zərərləri qiymətləndirən, habelə sığorta hadisələrini araşdıran fiziki şəxs müstəqil ekspert hesab edilir. Müstəqil ekspert olmaq üçün aqrar sığorta fəaliyyəti üzrə müvafiq icra hakimiyyəti orqanının təşkil etdiyi imtahandan müvəffəqiyyətlə keçməli, müvafiq sertifikat almalı və reyestrə daxil edilməlidir.

Sığorta hadisələri barədə məlumatı hadisənin baş vermə tarixindən 24 saat ərzində vasitəçi aqrar sığortaçıya və ya idarəedici quruma, eyni zamanda qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan digər səlahiyyətli dövlət orqanlarına məlumat verməlidir. Zərərin araşdırılması və qiymətləndirilməsi üçün müstəqil ekspert cəlb olunur. Müstəqil ekspert tərəfindən təqdim olunan rəy və fotoşəkillər əsasında ödəniş və ya imtina edilir.

### Külək, leysan, şaxta, sel...

Məlumat üçün qeyd edək ki, Aqrar Sığorta Fondu tərəfindən qeydə alınmış sığorta hadisələri lokal xarakter daşımır, ölkənin bütün ərazisini əhatə edir və müxtəlif dönəmlərdə olur. Bu ilin fevral və mart ayında güclü küləklər məhz Qobustan, Şəki, Zaqatala bölgəsində sığorta hadisələri yaradıb, may ayı ərzində güclü leysan, daşqınlar Aran bölgəsində, eləcə də cənub bölgəsində sığorta hadisələrinə səbəb olub.



Ümumiyyətlə, ölkəmizdə baş vermiş sığorta hadisələrinin 47 faizi güclü küləklər, fırtına, qasırğa nəticəsində yaranmış itkilərdir, 21 faizi sel, daşqınlar, yağış, güclü leysanlar nəticəsində yaranmış yağışlar, 11 faizi isə dolu ilə müşahidə edilən digər təbiət hadisələridir. Digər şaxtavurma hadisələri var, üçüncü şəxslərin hərəkətləridir. Üçüncü şəxslərin hərəkəti dedikdə - aqrar sığortalının, yəni fermerin özü və ailə üzvləri istisna olmaqla, digər şəxslərin hərəkət və yaxud hərəkətsizliyi nəticəsində dəyən zərərlər başa düşülür. Ailə üzvləri- valideynlər, uşaqlar, həyat yoldaşıdır. Yəni, fermerin özü və ya bu şəxslərdən başqa qalan hər kəs 3-cü şəxs sayılır və onun təsərrüfata vurduğu zərər sığorta ilə qarşılanır.



Aqrar sığorta fermerin təminatıdır. Bütün risklərə rəğmən məhsulunu itirməyəcəyinin qarantıdır. Odur ki, sığortalanmış əkin sahələrindan fayda, qazanc götürə bilmək üçün soğorta haqqında düşünməyə dəyər.

*Lalə Mehralı*

# Böyük Qayıdışımızın Füzuli və Cəbrayıl səhifəsi

## Prezident İlham Əliyev: "Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq"

Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları olan Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün vəziyyətində yaşayırdı. 44 günlük Vətən müharibəsində qazandığımız qələbə nəticəsində Zəfər tariximiz yazıldı. Bu qələbə Cənab Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın inamı və şəhidlərimizin qanı bahasına əldə olundu. Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz Ermənistana böyük zərbə vurdu və əzəli torpaqlarımız işğaldan azad olundu. Qazandığımız Zəfər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin, xalq-iqtidar birliyinin təntənəsi tarixə həkk olundu. Bu gün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

1993-cü il 23 avqust tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Füzuli və Cəbrayıl rayonlarının 27 illik həsrətinə də son qoyuldu. Artıq neçə illər idi ki, Azərbaycanın işğal altında olan torpaqlarından yazır və hər bir rayona erməni təcavüzkarlarının vurduğu maddi və mənəvi ziyanı








vurğulayırdıq. Və hər dəfə də tezliklə işğal tariximizi qələbə, zəfər tarixinin əvəzləyəcəyi günə inanırdıq. İnamımız reallaşdı. 1993-cü il 23 avqust tarixində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarının işğalından yazırdıq. Hər iki rayonun işğalı Azərbaycan iqtisadiyyatına 9 milyard dollara yaxın ziyan vurub.

### HƏSRƏTİNƏ SON QOYULAN FÜZULİ ŞƏHƏRİ

Füzulinin 51 kəndi və rayon mərkəzi ermənilər tərəfindən işğal edilmişdi. 55 min nəfərə yaxın sakin doğma torpaqlarını tərk edib. İşğal nəticəsində, öz ata-baba yurdlarından didərgin düşən insanların şəxsi mülkləri talan olunub, tarixi memarlıq abidələri məhv edilmişdi. Füzuli rayonu ərazisində yerləşən, qədim dövrün mədəni abidələri kimi, UNESCO-nun dünya irsi siyahısına düşən Azıx və Tağlar mağaraları ermənilər tərəfindən dağıdılıb. Azıxda aşkar olunan maddi-mədəniyyət nümunələri 1981-ci ildə Parisin İnsan Muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilib. Yağı düşmən tərəfindən Füzuli rayonundakı uzunömürlü təbiət abidələri - Şərq çinarları da tamamilə məhv edilib, Ərgünəş meşəsində 500 hektar ərazi yandırılıb. İşğal nəticəsində, 1100-dən çox Füzuli sakini şəhid olub, 113 nəfər girov götürülüb, 1450 nəfər müxtəlif dərəcəli əlil olub. Geniş meşə massivləri ilə örtülü olan Dövlətyarlı kəndində ağaclar, bütünlüklə, qırılıb, Qoçəhmədli kənd yolu boyunca ağaclar kütləvi surətdə məhv edilib, Yağlıvənd kəndində kəndarası yolun sağ və sol tərəfindəki böyük yaşıllıqlar tamamilə qırılıb, 2006-2009-cu illər ərzində, rayonun 35000 hektardan artıq ərazisi ermənilər tərəfindən yandırılıb.

Füzuli şəhəri də işğaldan azad olundu. Müzəffər Azərbaycan Ordusu şərəfli missiyanı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla yerinə yetirdi. Füzuli əməliyyatı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərdən biri kimi tarixə düşdü. Bu qələbənin qazanılmasında Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi mühüm amillər oldu.

Azərbaycan Prezidenti İlham Əliyev 17 oktyabr 2020-ci il tarixində xalqa müraciətində "Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"- deyə bildirmişdir.

### MÜASİR CƏBRAYIL VƏ RAHAT-FİRAVAN HƏYAT

Cəbrayıl rayonunun işğalı zamanı rayon 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət idi. 2016-cı ilin aprel döyüşlərində ordumuz düşmən qüvvələrini Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyindən və ətraf ərazilərdən geri çəkilməyə məcbur etdilər. Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir. Bu körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. 2020-ci ilin oktyabrın 18-i də tariximizə daha bir şanlı gün kimi yazıldı. Cəbrayıl rayonunda yerləşən tarixi Xudafərin körpüsünün üzərində 27 il sonra üçrəngli Azərbaycan bayrağı ucaldıldı. Vətən Müharibəsində böyük zəfərlərə imza atan müzəffər ordumuz tarixi abidəni öz sahibinə qovuşdurdu.

Bu gün Azərbaycan xalqı rahat nəfəs alır. İşğal altında olan torpaqlarımız azad olunub. Azərbaycanın müharibədə qalib gəlməsindən altı gün sonra, noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva işğaldan azad olunan Cəbrayıl rayonuna səfər etdi. Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan bayrağını qaldırdı. 2020-ci il noyabrın 26-da "Cəbrayılın azad olunmasına görə" medalı təsis edildi. Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak etmiş 12523 hərbi qulluqçu medalla təltif edildi.

44 günlük Vətən müharibəsində qazanılmış Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daimi diqqəti və nəzarəti altında işğaldan azad edilmiş ərazilərdə müasir şəhərsalma siyasətinə əsaslanan geniş tikinti-quruculuq işləri aparılır. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" və "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı"na əsasən Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında yerləşən yaşayış məntəqələrinin Baş planları hazırlanıb. Cəbrayıl şəhərinin Baş planına əsasən, müasir Cəbrayıl şəhəri özü və yaxınlıqdakı 5 kəndi əhatə edəcək və şəhərin ümumi ərazisi 625 ha təşkil edəcək. Layihədə şimaldan cənuba doğru uzanan Çaylaqçay ətrafında şəhərin mərkəz hissəsində təklif olunan "yaşıl zolaq" şəhərin əsas onurğası kimi verilib. Qeyd edək ki, rayon ərazisində bir çox tarix-memarlıq abidələrinin, o cümlədən Xudafərin körpüsünün yerləşməsi şəhərin gələcək özünəməxsus memarlıq görünüşünün yaradılmasında xüsusi rol oynayacaq.

### CƏBRAYIL ŞƏHƏRİNDƏ 15 000 SAKİN YAŞAYACAQ

Şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3 800 nəfərin şəhərdə yerləşəcəyi qeyd olunur, 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15 000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub. Əhalinin 82%-nin orta və azmərtəbəli çoxmənzilli binalarda, 18%-nin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb. Yaşayış evlərinin layihələndirilməsi zamanı şəhər ərazisindən səmərəli istifadə və müasir memarlıq həlləri əsas götürülüb.

Baş planların hazırlanması zamanı məskunlaşma sisteminin formalaşdırılmasında əhalinin məşğulluğunun davamlılığı əsas götürülüb.

Şəhərin məşğulluq imkanları rayon ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar və zəngin təbii ehtiyatlar nəzərə alınmaqla proqnozlaşdırılıb. Beləliklə, şəhərin iqtisadi inkişafında xidmət və sənaye sektorlarının böyük rol oynayacağı, kənd təsərrüfatı sahəsinin isə digər yaşayış məntəqələrində daha çox inkişaf edəcəyi göstərilib. Baş planda ictimai-işgüzar zona üçün 22.87 ha ərazi ayrılıb. Burada inzibati və ofis binaları, mərkəzi meydan, mədəniyyət, ictimai-iaşə və turizm obyektləri yerləşdiriləcək. Şəhərin Baş planı hazırlanarkən nəqliyyatın planlaşdırılması zamanı insanyönümlü şəhər və təhlükəsiz hərəkət prinsipləri əsas götürülüb. Burada yol şəbəkəsi piyada keçidi və velosiped yollarının, ictimai nəqliyyatın üstünlük təşkil etdiyi formada layihələndirilib. Şəhərdaxili yol profillərində təxminən 60 km uzunluğunda piyada və velosiped yollarının salınması planlaşdırılıb. Cəbrayıl şəhərində küçə-yol şəbəkəsinin ümumi uzunluğu 45 km-dən çox olacaq.



## "BÖYÜK QAYIDIŞ PROQRAMI QƏBUL OLUNUB, UĞURLA İCRA EDİLİR, ARTIQLAMASI İLƏ İCRA EDİLİR"

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası nəticəsində nəzərdə tutulan hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyinin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib. Bu Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. "Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq. Yəni, bu, belə demək mümkündürsə, ən minimal göstəricidir. Mən əminəm ki, bundan daha böyük sayda insanlar məskunlaşacaq, çünki birincisi, bizim buna gücümüz çatır, iradəmiz var, Böyük Qayıdış Proqramı qəbul olunub, uğurla icra edilir, artıqlaması ilə icra edilir və əsas amil odur ki, bizim keçmiş köçkünlər səbirsizliklə o günləri gözləyirlər. Məsələn, mən həm Zəngilanda, həm Laçında uşaqlarla söhbət əsnasında maraqlanırdım. Yəni, Bakıda doğulmuş, böyümüş, necə deyərlər, böyük şəhərin ab-havasına öyrəşmiş uşaq, yeniyetmə gəlib indi bir qədər uzaqda yerləşən şəhər və kənddə necə yaşayır? Onlar ürəkdən deyirdilər ki, bu, böyük xoşbəxtlikdir", - deyə Prezident çıxışlarının birində bildirmişdir.

Müharibədən çıxmış bir dövlət qısa zamanda Böyük Qayıdışın təntənəsini yaşayır. Bu gün işğaldan azad olunan ərazilərimizdə böyük abadlıq, quruculuq işləri davam etdirilir. Tikilən yeni evlər, ictimai binalar, sosial obyektlər əzəli sakinləri qoynuna alır və yaşından asılı olmayaraq hər bir insanın rahatlığı, firavanlığı təmin olunub.






## 1880 ŞAGİRDİN TƏHSİL ALACAĞI MÜASİR STANDARTLARA UYĞUN 3 TAM VƏ ORTA TƏHSİL MÜƏSSİSƏSİ

Sənəddə əhalinin artım tempi nəzərə alınmaqla sosial tələbata uyğun ən müasir təhsil və səhiyyə ocaqları layihələndirilib. Belə ki, şəhər ərazisində öz doğma torpaqlarına qayıdacaq cəbrayıllı 1880 şagirdin təhsil alacağı müasir şəhərsalma standartlarına uyğun 3 tam və orta təhsil müəssisəsi, 960 uşaq üçün nəzərdə tutulan 4 məktəbəqədər təhsil müəssisəsi, mərkəzi rayon xəstəxanası, poliklinika, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman komplekslərinin inşası planlaşdırılıb.

Baş plana əsasən, ümumi yaşıllıqların sahəsi 110 ha təşkil edəcək, bununla da şəhər ərazisinin 18%-i yaşıl zonalardan ibarət olacaq. Əhalinin əsas istirahət zonası olaraq Çaylaqçay ətrafında salınması təklif edilən "yaşıl zolaq" mərkəzi park olaraq müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün əhalinin açıq məkanlara çıxışını təmin edəcək.

## 2040-CI İLƏDƏK FÜZULİ ŞƏHƏRİNİN ƏHALİSİ 50 MİN NƏFƏR OLACAQ

Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərə o cümlədən, Füzuliyə səfərləri tarixi hadisələrlə yadda qalır. Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməlqoyma mərasimi, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi və s. Füzulinin tezliklə abadlaşmasına yönəlmiş layihələrdir. Füzuli Beynəlxalq Hava Limanının 2021-ci il yanvarın 14-də təməlinin qoyulması və 2021-ci il oktyabrın 26-da açılışı buradakı görülən işlərin əyani təzahürüdür. Cəmi 9 ay ərzində müasir standartlara cavab verən beynəlxalq hava limanının tələblərinə uyğun qurulmasına və bu layihənin tam dağıdılmış, heç bir adi infrastrukturu belə olmayan bir ərazidə həyata keçirilməsi Azərbaycan dövlətinin iqtisadi qüdrətinini göstəricisidir. Füzuli Beynəlxalq Hava Limanı, xüsusən bu rayonun Qarabağın və Şərqi Zəngəzurun hava qapısı rolu oynadığını birmənalı surətdə təsbit edir. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Bu gün işğaldan azad olunan ərazilərimizdə, eləcə də Füzulidə abadlıq-quruculuq işləri böyük vüsət alıb. Füzuli şəhərinin Baş planı hazırlanıb. Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Yaşayış ərazilərinin sıxlığının müəyyənləşdirilməsində proqnozlaşdırılan əhali sayı ilə yanaşı, təklif edilən digər şəhər xidmətlərinin yerləşməsi də nəzərə alınıb. Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsi, 13 məktəbəqədər təhsil müəssisəsi, peşə təhsili müəssisəsi, internat tipli musiqi məktəbi, xəstəxana, idman və sağlamlıq mərkəzi, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman kompleksinin inşası, Qələbə və Memorial park, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan ekoparkın salınması planlaşdırılıb. Baş planda Füzuli şəhərinin dayanıqlı inkişafı, ağıllı həllər əsasında qurulması və insanların sağlam həyatını təmin etmək üçün ən müasir şəhərsalma yanaşmaları tətbiq edilib.

Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəb, Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi istifadəyə verilib. Prezident İlham Əliyevin bildirdiyi kimi, "Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir".

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində keçmiş məcburi köçkünlərin 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Abadlaşan və daha da gözəlləşən Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşırlar. Füzuli abadlaşır və yenidən qurulur. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasəti, siyasi iradəsi ilə Füzuli-Şuşa yolunun təməlinin qoyulması və qısa müddətdə müasir tələblər əsasında və keyfiyyətli surətdə istifadəyə verilməsi, o cümlədən Füzuli-Ağdam, Füzuli-Hadrut və digər avtomobil yollarının inşası xüsusi ilə qeyd olunmalıdır. Füzuliyə köç karvanları davamlı olaraq yol alır.

***Zümrüd BAYRAMOVA***

# SOS:
# Soyumuz tükənir!



2024-cü ilin yanvar-iyul ayları ərzində ölkə üzrə 58 848 uşağın doğumu dövlət qeydiyyatına alınıb. Bu uşaqlardan 31 306-sı oğlan, 27 542-i isə qız olub. Ötən ilin statistikasına əsasən isə həmin aylarda bu rəqəm 112 min 620 olub. Uşaqların 59 814-ü oğlan, 52 806 nəfəri isə qız olub. Yəni cəmi bir ildə ölkədə artım çox ciddi şəkildə azalıb, rəqəmlərə görə bu 54-55 min daha az uşağın doğulması deməkdir. Bu qədər azalma heç bir dövlət üçün normal deyil. Doğulan uşaqların sayının bu qədər azalması faciədir, Azərbaycan demoqrafik artımda stabilliyin qorunması təmin etmək məcburiyyətindədir. Yaxın gələcəkdə nə orduya aparmağa əsgər, nə də o əsgərləri dünyaya gətirməyə qadınlar tapılacaq. Bu azalma ictimai-sosial işlərin, habelə peşə icraçılarının da kəskin azalması deməkdir. Təminat təlabatı ödəməyəcək.





Azərbaycan dünyaya gələn uşaqların cins nisbətinə görə selektiv aborta üstünlük verən dövlətlər arasında birinci yerdədir. Bunu ötən ilin oktyabrında BMT-nin Əhali Fondunun baş müşaviri Fərid Babayev açıqlamışdı. 2021-ci ilin statistikasına əsasən Azərbaycanda 100 qıza 115 oğlan düşürdü. Əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. İndi vəziyyət əksinədir. Belə ki, hazırda Çində bu göstərici 100-110,3 təşkil edir. Dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya uyğun olaraq 102-106-dır. Belə ki, heç bir xarici müdaxilə olmadığı təqdirdə doğulan hər 100 nəfər qız uşağına 102-106 oğlan uşağı düşür, bu təbiətin yaratdığı tarazlıqdır.



Azərbaycanda 2023-cü ildə 73816 abort qeydə alınıb. 15-17 yaş üzrə 68, 18-19 yaş üzrə 2528, 20-24 yaş üzrə 12315, 25-29 yaş üzrə 22140, 30-34 yaş üzrə 22306, 35-49 yaş üzrə 14376 abort faktı qeydə alınıb. Abortların ümumi sayında dərmanla aparılanların sayı 630, birinci hamiləliyin pozulması ilə nəticələnənlərin sayı isə 2203 olub. 2022-ci ildə 58 min abort qeydə alındığını deyən Dövlət Statistika Komitəsi bildirir ki, onlardan 14 min 900-ü mini abort, 500-ü dərman vasitələri ilə aparılan abortlar olub.

Dölün cinsini müəyyən edilməsinə imkan yaradan ultrasəs müayinəsindən geniş istifadə nəticəsində ölkədə oğlan uşaqlarına verilən üstünlük selektiv abortlar vasitəsilə reallaşdırılır. Bu isə doğulan uşaqlar arasında cins nisbətinin ciddi şəkildə pozulmasına səbəb olur. BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq. Yəni indi selektiv abortla bağlı olan çətinlik yaxşın gələcəkdə maksimal dərəcəyə çatacaq.

Cinsi ayrı-seçkilik dünyanın bütün ölkələrində həmişə müzakirə edilən və heç vaxt öz həllini tapmayan bir mövzudur. Valideynlər bəzən bilərəkdən, bəzən də bilməyərəkdən övladları arasında fərq qoyur. Doğulacaq körpənin qız olacağını öyrənən bəzi valideynlər sevinsə də, çoxları bu duruma sözün həqiq mənasında kədərlənirlər. Çox təəssüf ki, bəzi halda bu vəziyyət abortla nəticələnir. Elə bu səbəbdəndir ki, statistik rəqəmlərdə balans fərqi açıqaydın gözə çarpır. Cəmiyyətin oğlan sevdası gender balansını ciddi formada pozur.

Məlumat üçün qeyd edək ki, hazırda mövcud olan qanunvericiliyə əsasən, dölün cinsi məlum olduqdan sonra abort etmək qadağandır, lakin bu məsələnin daha da ciddiləşdirilməsi nəzərdə tutulur. Dölün cinsini müəyyən etmək üçün ultrasəs müayinəsinin qadağan olunub-olunmaması məsələsi selektiv abortun qadağası kimi mübahisəli olaraq qalır.

Ölkəmizdə abort qanunla qadağan deyil, qadının abort olunarkən həyat yoldaşından yazılı icazə alınması məsələsi də qanunla dəstəklənmir. O ki qaldı abortun ümumiyyətlə ölkəmizdə qadağan edilməsi məsələsinə, belə görünür ki, bu yaxın onillikdə belə mümkün olmayacaq. Milli Məclisin deputatları bunu cəmiyyətin belə qadağaya hələ hazır olmaması ilə əlaqələndirirlər. Amma zənnimcə qadağaya hazır olmurlar, alışırlar. Hər il oktyabrın 11-i Beynəlxalq Qız Uşaqları Günü qeyd edilir. Bəli, qeyd edirlər, sevinirlər, qız uşaqlarına sevgidən danışırlar. Bəs görəsən qızını həkim bıçağına doğratdıranlar nə düşünür bu gün?

Hər il dünyada 55 milyon uşaq ana bətnindən doğranaraq xaric edilir. Onların 20 milyonu qeyri-leqal abortlardır. Küncdə-bucaqda, evdə, həyətdə, hansısa fəaliyyəti qadağan qadağan olunmuş həkimin çirkli otağında edilən abortların hər il dünyada 70 mindən artıq qadının ölümünə səbəb olduğunu bilirdinizmi? Edilən abortların əksəriyyəti dölün 12-13 həftəliyində reallaşır. Bu körpənin cinsiyyətinin bəlli olduğu ərəfədir.

*Lalə Mehralı*

---



MƏTANƏT

# Sosial şəbəkələr: müasirliyin "təntənəsi"

Sosial şəbəkələr həyatımıza daxil oldu-olmadı, dəyişdik, "müasirləşdik", "yeniliklərə" boyun əyməli olduq, keçmişi unutmağa başladıq, hətta bəyənmədik. Boş vaxtımız qəhət oldu, çünki kompüterlərin qabağından ta durmadıq. Telefonları əlimizdən yerə qoymadıq. Kitab oxumaq unuduldu, yerini sosial şəbəkələrdə lazımlı-lazımsız əyləncələr aldı. Qohum-qardaşa qonaq getmək unuduldu. Çünki sosial şəbəkələr bizi özünə elə bağladı ki, bütün bunları həyatımızın ikinci planına çevirdik. Xəstələrimizi telefonda soruşduq. Yaşlılarımızdan telefonda xəbər bildik. Ölənlərimiz üçün telefonda başsağlığı verdik. Bayramlaşmaları telefonla etdik. Sosial şəbəkələr bizi bir-birimizə göstərdi, görüntülü danışdıq. Ta kiminsə evinə getməyə lüzum qalmadı. Bu məsələlərin hər birini "Votsap", "İnstagram" həll etməyə başladı.

Günlər ömrümüzdən ayları bir-bir qoparıb il edib arxivə verdikcə, sosial şəbəkələr daha da müasirləşdi, onlarla yenisi yarandı və yarandıqca da biz bizlikdən daha çox çıxdıq. Olduq özgəsi. Günlərin bir günü həyatımıza "Tiktok" daxil olanda isə bütün sosial şəbəkələr kimi, ona da sevindik. Üstünlüklərini vurğuladıq, həvəsləndirmələrinə boyun əydik, əyləncələrinə aludə olduq. Ümumilikdə isə "Tiktok"a vaxtımızı verdik. Bir də baxdıq ki, nə? Biz haradayıq? Biz nə edirik? Biz nələri paylaşırıq? Biz nələri müzakirə edirik?

Baxdıq ki, biz utanmağın daşını çoxdan atmışıq. Burada elə şeylər paylaşırıq ki, İlahi-pərvərdigara, gözlülər olsun, görməsin. Ta bunlar haqqında danışmaq olmaz. Çünki hələ də utanan adamlar mövcuddur. Buna da minlərcə dəfə şükürlər olsun.

Baxdıq ki, cavan-cavan oğlanlar, həm də ki, boy-buxunlu, yaraşıqlı, küçənin, məhəllənin ortasında rəqs edirlər, utanmadan, qısılmadan. Dedik görən bunlar niyə belə edirlər, dedilər ki, məşhur olmaq istəyirlər. Xəyalımızda igidlərimiz, şəhidlərimiz, qazilərimiz canlandı. Düşündük ki, belə oğullarımız da var, beləlri də.

Baxdıq ki, nəvə nənəsini söhbətə tutub onun şirin, yeri gələndə zarafatyana söhbətlərini çəkib burada paylaşır, bütün dünya da tamaşa edir. Sanki nəvə nənəsini lağa qoyduğunu bütün dünyaya reklam edir.

Ana övladını çəkir, paylaşır, onu söhbətə tutur, uşaq isə yaşına uyğun olmayan tərzdə danışaraq uşaqlığı təhqir edir. Valideyn isə bunu inkişafın, müasirliyin təntənəsi kimi paylaşır...

Baxdıq ki, həyat yoldaşından ayrılan, qayınanası ilə yola getməyən, ailə problemləri ilə qarşılaşan, ərinin qazancına qane olmayan qadınlarımız "Tiktok qəhrəmanına" çevriliblər. Şəxsi problemlərini, söz-sirrini açıb dünyaya bəyan edirlər. Hər kəs də bir cür münasibətlə onlara rəy yazır. Mini qızışdırır, biri "ar olsun",- deyir. Lakin minlər birlərdən çox olduğu üçün adam daha da qızışır, qızışdıqca da həddini aşır. Başlayır çoxseriyalı filmlər kimi növbəti hissələri çəkib, danışıb paylaşmağa.

Bu "Tiktok" yarandı-yaranmadı, bizdən çox şeylər aldı. Fərqində olanlar yəqin ki var. Bir də ki, "Tiktok, Tiktok" da deyirik. "Tiktok" nə etsin axı. O, bir sosial şəbəkədir. Dayanıb yerində. Dil açıb danışmır, camaata "gəl, burada özünü biabır elə" demir, "söz-söhbətini aç burada danış" demir, "video paylaşıb özünü biabır elə" demir. "Tiktok"da çox yaxşı mənada paylaşmalar var ki, informasiyanı artırır, öyrədir, xəbərdar edir, arxivləşir.

"Tiktok" dayanıb yerində, nə edir insanlar edir. Ümumilikdə həm yaxşıları, həm yaxşı olmayanları fonunda "Tiktok"un bu gün bizdən aldıqları verdiklərindən dəfələrlə çoxdur. Bu gün nə qədər yalan, qeyri-rəsmi xəbərlər varsa, hamısı "Tiktok"dan ətrafa yayılır. Nə qədər lazımsız-lüzumsuz söhbətlər, videolar var, hamısı "Tiktok"da edilir, göstərilir. Biz nə edirik, hələ üstəlik götürüb həmin yalanları və lüzumsuzları digər sosial şəbəkələrdə də paylaşırıq. İnsanların beynini zəhərləyirik, yetişməkdə olan nəslin tərbiyə istiqamətini dəyişdiririk.

Elə bu səbəbdən də gəlin, barı, övladlarımızı "Tiktok"dan qoruyaq. Ağlımız nə kəsir, onu etməyək. Bir düşünək ki, bu yalan xəbər, lüzumsuz söhbət, əxlaqasığmayan videolar bizim hansı dəyərlərimizi əlimizdən alır. Gəlin özümüzə bir az yazığımız gəlsin. "Tiktok"un bizdən aldıqlarının yerini verdiklərinin doldura bilməyəcəyini bir an da unutmayaq, gec olsa da. Bəlkə nələri isə qaytara bilərik...

Sosial şəbəkələr olub müasirliyin təntənəsi, "Tiktok" da bu təntənənin zirvəsi. Bu "təntənənin" altında nə qurbanlar var, onu görə bilək kaş ki...

# İsti yay günlərində meyvə-tərəvəzlərimizi necə qoruyaq?

***Meyvə-tərəvəzlərin xarab olmasının qarşısını almaq üçün uyğun şəraitin təmin edilməsi çox vacibdir. Bəs, isti yay günlərində meyvə-tərəvəzlərimizi necə qoruyaq?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Meyvələr sağlam qidalanma üçün əvəzolunmazdır. Meyvələri otaq temperaturunda saxlamaq ümumiyyətlə idealdır. Ancaq unutmaq olmaz ki, isti havalarda bəzi meyvələr daha tez yetişə bilər. Odur ki, soyuducu variantını meyvənin temperaturuna, növünə və yetişməsinə görə qiymətləndirə bilərsiniz.

Tərəvəzlərin qida rasionumuzdakı yerini görməzlikdən gələ bilmərik. Xarab olmasın deyə ümumiyyətlə soyuducuda saxlanılan qidalar olsa da, meyvə kimi qaranlıq və sərin yerdə saxlanması lazım olan növlər də var.

Mövsümi, zədəsiz, canlı və parlaq görünüş sizin düzgün məhsul seçdiyiniz deməkdir. Beləliklə, bir neçə sadə addımı izləməklə bu təbii qidaları budaqdan təzə qoparılmış kimi istehlak edə bilərsiniz.



## Meyvə-tərəvəzləri soyuducuda necə saxlamağın sirləri

***Meyvə-tərəvəzlərin saxlanması üçün düzgün temperatur***



Meyvə-tərəvəz sortlarının ideal temperaturda saxlanılması təravətinin uzun müddət saxlanmasını təmin edən mühüm məsələlərdəndir. Təbii qidalar üçün uyğun olan müxtəlif temperatur diapazonları ola bilər. Bu aralıqlardan kənarda saxlanılan meyvə-tərəvəzlər tez xarab ola və ya çürüyə bilər.

Hər bir qida üçün saxlama temperaturu və tələb olunan mühit fərqli ola bilər. Məsələn, pomidor, bibər, badımcan, xiyar, balqabaq, qarğıdalı, kartof və soğan kimi tərəvəzlər otaq temperaturunda; brokoli, kök, ispanaq, kahı, pazı və turp kimi tərəvəzlər soyuducuda saxlanmalıdır. Soyuducunun temperatur rejiminin 2-4 dərəcə arasında olması kifayətdir.

Meyvələrdə olan vitamin və minerallardan maksimum yararlanmaq üçün bu qidaları saxlayarkən hansı temperaturlara üstünlük verməli olduğunuzu bilməlisiniz. Banan, ananas, manqo, avokado, limon, qreypfrut və üzüm kimi təbii qidaları otaq temperaturunda saxlaya bilərsiniz.

Qısa müddətdə yetişmiş meyvələri istehlak etməyəcəksinizsə, soyuducunuzda 2-4 dərəcədə saxlamağa başlamalısınız. Bunun səbəbi qidaların tam yetişdikdən sonra daha tez çürüməyə başlamasıdır. Xüsusilə çiyələk, böyürtkən və moruq kimi meyvələrdə bu proses sürətlə davam edə bilər.

Temperaturdan başqa, rütubət də nəzarət edilməli olan vacib amillərdən biridir. Yüksək rütubətli mühitlərdə saxlanılan meyvə-tərəvəz sortları xarab olmağa və kiflənməyə daha həssasdır. Kartof, soğan, sarımsaq və şirin kartof kimi kök tərəvəzlər quru yerlərdə yerləşdirilməli və müəyyən aralıqlarla havalandırılmalıdır.

Aldığınız təbii qidaları düzgün temperatur və rütubət səviyyələri sayəsində dadını itirmədən süfrələrinizdə yeməyə hazır vəziyyətə gətirə bilərsiniz. Hər bir meyvə-tərəvəzi növünə, yetişməsinə və nə vaxt istehlak edəcəyinə görə qiymətləndirməyi unutmayın.

## Meyvə-tərəvəzləri saxlayanda nələrə diqqət etmək lazımdır

Saxlama zamanı təbii qidaların təravətini və qida dəyərini saxlaması vacibdir. Müvafiq prosedurlarla mümkün sağlamlıq risklərinin qarşısını ala bilərsiniz.

Meyvə və tərəvəzləri saxlayarkən onları çeşidləmək lazım ola bilər. Yumşaq və çürüyən qidalar ayrı saxlanılmalıdır. Çünki çürüməyə başlayan qidalar başqalarının bu yolu tutmasına səbəb ola bilər.

Banan, alma, avokado, qarpız kimi qidaları müxtəlif yerlərdə saxlamaq lazım ola bilər. Bunun səbəbi bu qidaların ifraz etdiyi etilen qazıdır. Etilen qazı ətrafındakı meyvə-yetişmə sürətini artıra bilər. Pomidor etilen qazının sərbəst buraxılmasından çox təsirlənən qidalardan biridir. Xarab olmamaq üçün bu addıma diqqət edin.



Etilen qazı da bəzi hallarda faydalı ola bilər. Yetişməmiş qidaları daha tez yeməyə hazır etmək üçün alma kimi etilen qazı buraxan qidalarla birlikdə saxlaya bilərsiniz.

Unutmayın ki, ananas, avokado və qarpız kimi qidalar yetişmə müddətindən asılı olaraq otaq temperaturunda saxlanıla bilər. Bəzi təbii qidalar digərlərindən daha incə və diqqətli saxlama şəraiti tələb edə bilər. Çiyələk zərif quruluşuna görə çürüməyə meyllidir. Buna görə də onları yuyulduqdan dərhal sonra istehlak etmək tövsiyə olunur.

Çeşidləmə, etilen qazı buraxan qidaların ayrıca saxlanılması və saxlama zamanı ideal temperatur kimi maddələri nəzərə alaraq, mümkün israfın qarşısını ala və sağlam qidalanmanı dəstəkləyə bilərsiniz.

## Tərəvəz-meyvə saxlanarkən ən çox edilən səhvlər

***Niyə tərəvəzlər soyuducuda tez xarab olur?***

- Təbii qidaları möhkəm büküb soyuducuya qoymaq ən çox edilən səhvlərdəndir. Bu üsul hava çatışmazlığı səbəbindən meyvə-tərəvəzin çürüməsinə səbəb ola bilər. Onları nəfəs ala biləcəkləri mühitlərdə və formalarda saxlamalısınız.
- Bəzi meyvə-tərəvəzləri təzə saxlamağın başqa bir yolu onları yumadan saxlamaqdır. Beləliklə, nəmlik problemi yaşamadan təbii qidaları qoruya bilərsiniz. Çiyələk xüsusilə yuyulduqdan sonra tez xarab olur.
- Yaşıl yarpaqlı tərəvəzlər və yerkökü kimi tərkibində toz və torpaq ola bilən qidaları yaxalamaq lazımdırsa, soyuducuya qoymazdan əvvəl mütləq qurudun.
- Alma, banan, ərik, əncir, üzüm və gavalı kimi yetişməni sürətləndirən etilen qazı ifraz edən meyvə və tərəvəzləri vəziyyətdən asılı olaraq başqalarından ayrı və ya onlarla birlikdə saxlamaq lazım ola bilər.
- Təbii qidaları plastik torbalarda saxlamaq, edə biləcəyiniz zərərli üsullar arasındadır. Plastik torbalar rütubəti və havanı tutaraq qeyri-sağlam mühit yaradır. Buna görə kağız dəsmallardan və ya uyğun qablardan istifadə etməyi məsləhət görürük.
- Tərəvəz-meyvələri doğradıqdan sonra otaq temperaturunda buraxmamalısınız. Doğranmış qidalar hava ilə təmasda daha tez çürüyə bilər.
- Soyuducu tiplərində bölmələr arasında soyuqluq fərqi böyük ola bilər. Bəzi meyvə-tərəvəzlər çox aşağı temperaturda xarab ola bilər. Müvafiq bölmələri seçdiyinizə əmin olun.

## Tərəvəzləri soyuducuda torbalara qoymaq lazımdırmı?

Bu qidaların harada və necə yuyulmasından, otaq temperaturunda, soyuducuda olmasından asılı olmayaraq, dadını qorumaq üçün düzgün saxlama üsulları ilə uyğun qabda saxlanmalıdır.

***Ardı səh. 12***

# İsti yay günlərində meyvə-tərəvəzlərimizi necə qoruyaq?

Əvvəli Səh. 11

Təbii qidaları saxlamaq üçün qablar seçərkən onların materiallarını və təyinatını yoxlamaq lazımdır. Torba yerinə meyvə və tərəvəz üçün xüsusi hazırlanmış saxlama qablarını seçsəniz daha yaxşı nəticə əldə edə bilərsiniz.

Düzgün addımlara əməl etməklə və müvafiq saxlama qablarından istifadə etməklə siz meyvə-tərəvəzlərin israfının qarşısını ala və onların faydalarından səmərəli şəkildə yararlana bilərsiniz.

Meyvə-tərəvəzlərin xarab olmasının qarşısını almaq üçün ilk növbədə onların saxlama müddətinə fikir verməklazımdır.

## Tərəvəzlərin soyuducu ömrü

İspanaq: 3-5 gün
Brokoli: 3-5 gün
Göbələk: 4-7 gün
Yaşıl lobya: 5-7 gün
Xiyar: 1 həftə
Bibər: 1 həftə
Kahı: 1 həftə
Kərəviz: 1-2 həftə
Kartof: 1-2 həftə
Yerkökü: 3-4 həftə
Soğan: 1-2 ay





## Meyvələrin soyuducu ömrü

Çiyələk: 3-5 gün
Şaftalı: 3-5 gün
Albalı: 4-7 gün
Üzüm: 5-7 gün
Armud: 5-7 gün
Qovun: 7-10 gün
Qarpız: 1-2 həftə
Qreypfrut: 2-3 həftə
Narıncı: 2-3 həftə
Alma: 3-4 həftə

## Meyvə-tərəvəzin çürüməsinin qarşısını almaq üçün nə etmək lazımdır?

***Tövsiyələr***

Meyvə-tərəvəzlərin xarab olmasına səbəb olan ən mühüm amil istehlak vərdişləridir. Mövsümi olmayan meyvə və tərəvəzləri ehtiyacımız olmayan səviyyədə almaq onların xarab olmasına səbəb olacaq. Tərəvəz və meyvələrin xarab olmaması üçün alış-veriş siyahınızı daha diqqətlə hazırlamalısınız. Bundan əlavə, tətbiq edə biləcəyiniz bəzi çürük əleyhinə üsullar var.

## Meyvə-tərəvəzləri az və tez-tez alın

Meyvə-tərəvəzləri çox aldıqdan sonra israf olunur. Soyuducuda uzun müddət qalan məhsullar da bir-birindən təsirlənərək tez xarab olur. Bunun qarşısını almaq üçün həftəlik meyvə və tərəvəz ehtiyacınızı müəyyən etmək çox vacibdir. Digər tərəfdən, tullantıları azaltmaq üçün istehlak vərdişlərimizi dəyişdirmək ev iqtisadiyyatına maliyyə töhfəsini təmin edir.

## Meyvə-tərəvəzləri aldıqdan dərhal sonra yumayın

Tərəvəz və meyvələrin saxlanmasında ən çox edilən səhvlərdən biri bu qidaların dərhal yuyulmasıdır. Bazardan alınan meyvə-tərəvəzi yerləşdirməyə qoyulmazdan əvvəl yuyulmamalıdır. Çünki qidanın üzərində qalan nəmlik xarab olma prosesini sürətləndirə bilər.

## Xarab qidaları çeşidləməyi unutmayın

Ərzaqların saxlanması ilə bağlı az məlum olan faktlardan biri də meyvə və tərəvəzlərin bir-birini xarab etmə qabiliyyətidir. Meyvə və tərəvəzlərdə əslində qidanın inkişafını təmin edən etilen hormonu var. Ancaq bu hormon davamlı olaraq ifraz olunarsa, yetişməni sürətləndirir və qidanın çürüməsinə səbəb olur. Təbiətinə görə, etilen hormonu ifraz olunduğu qidadan başqa, yaxınlıqdakı digər məhsullara təsir göstərə bilər. Bu səbəbdən yaxınlıqda xarab olan meyvə və tərəvəzlər daha tez çürüyəcək.

## Tərəvəz və meyvələri növünə görə necə saxlamaq olar?

Yuxarıda qeyd etdiyimiz maddələr demək olar ki, bütün tərəvəz və meyvələr üçün keçərlidir. Bununla belə, daha uzun saxlama müddətlərinə nail olmaq üçün tərəvəz və meyvələri növünə görə saxlamaq lazım ola bilər. Xüsusilə, tərəvəz saxlama üsulları meyvələrlə müqayisədə fərqli ola bilər.

## Yaşıl yarpaqlı tərəvəzlər

Yaşıl yarpaqlı tərəvəzlərə (ispanaq, kələm, kahı və s.) gəlincə, bu tərəvəzləri yuyulmadan, rezindən hazırlanmış ağzı bağlanan saxlama torbalarında saxlamaq lazımdır. Rezin ekoloji cəhətdən təmiz xammal olduğundan bu qablar ətraf mühitin çirklənməsinə mənfi təsir göstərmir. Məhsulları doğrayacaqsınızsa, onları hava keçirməyən qablarda saxlamaq daha məqsədəuyğun olardı.

## Alma və armud

Filmlərdə insanların almaları nəhəng bir qaba qoyub otaq temperaturunda saxladıqlarını görürük, lakin bu birbaşa alma və armudların xarab olmasına səbəb olur. Bu meyvələr soyuğu sevir, ona görə də onları soyuducunun soyuq künclərində saxlamaq daha yaxşıdır. Eyni zamanda, onları soyuducunun müxtəlif bölmələrində saxlamaq və etilen qazının digər meyvələri xarab etməsinə imkan verməmək lazımdır.

## Sitrus meyvələri

Sitrus meyvələrini soyuducuda və ya otaq temperaturunda saxlamaq mümkündür, daha tez görünməsi və istehlak edilməsi üçün onları 1 həftə otaq temperaturunda bir qabda saxlamaq məntiqli olardı. Daha sonra, əgər onlar hələ də bitməyibsə, sitrus meyvələrinizi soyuducuya qoya bilərsiniz.

## Kök tərəvəzlər

Kök tərəvəzləri (kök, kartof, turp, zəncəfil) saxlayarkən həmişə onlara diqqət yetirin. Bu tərəvəzlərin yaşıl hissələrini çıxardıqdan sonra onları saxlama torbalarına və soyuducuya qoymaq kifayətdir. Kartof bu baxımdan digər növlərdən fərqlənir, çünki onu bir qədər soyuq yerdə və soyuducudan kənarda saxlamaq lazımdır.



*Ayşən Vəli*

# Yas mərasimləri:

## Naxçıvan nümunəsi tətbiq olunsun

***Bu gün hər kəsi narahat etməli olan ən vacib məsələlərdən biri yas mərasimlərinin israfçılığa açdığı qapıdır. Bu, elə bir qapıdır ki, onu açan özümüz olduğumuz kimi, bağlayan da özümüz olmalıyıq. Çünki digər məsələlər kimi, yas mərasimlərinin də belə "müasirləşməsinin" səbəbkarı bizik. Necə ki, toylarımızda qədim adət-ənənələri ixtisara sala-sala gedirik, özümüz "yeniliklər" kəşf edib toylara daxil edir, necə deyərlər, toyları əndazədən çıxarırıq, yas mərasimlərinin də "müasirləşməsinin" səbəbkarı bizik.***

İllərdir ki, bu mövzu ətrafında müzakirələr, mübahisələr gedir, lakin sanki bəhsəbəhslik, "qonşudan geri qalma" prinsipi, "adım-sanım var" iddiası bu müzakirələrin qarşısına keçir və necə deyərlər, bildiyimiz elə bileyimizdə qalır.

Ən pisi isə ondan ibarətdir ki, neçə illərdir, yas mərasimlərini bu şəklə salsaq da, bunun yaxşı hal olmadığı barədə çağırışlar olsa da, yazılar yazılsa da, hələ ki, deyilənləri nə eşidən, nə də əməl edən var. Bəs belə isə biz itirə-itirə haraya gedirik? Nə vaxt papağımızı qarşımıza qoyub fikirləşəcək, əldən gedən adətlərimiz, mentalitetimiz üçün narahat olacağıq.

Toy və yas mərasimlərinin keçirilməsi üçün ictimai fikir, qənaət olmalıdır. Yəni bunu cəmiyyət, insanlar formalaşdırdığı kimi, yeni tətbiq edilənlərin qarşısını da onlar almalıdır. Necə ki, yas mərasimləri ilə bağlı Naxçıvanda naxçıvanlılar tərəfindən qaydalar tamamilə dəyişdirildi. Deməli, başqa bölgələrdə də bunu etmək mümkündür.









### Vaxt var idi ki...

Vaxtilə, yəni bütün Azərbaycanda yas mərasimləri toy mərasimlərinə oxşar vəziyyətə gətiriləndə, bu, Naxçıvandan da yan keçməmişdi. Bu bölgəmizdə də yas mərasimlərində açılan süfrələr toy mərasimlərini xatırladırdı. Süfrələrdə necə deyərlər, quş südü əskik olardı. Eynilə digər bölgələrimizdəki kimi. O vaxtlar Naxçıvan mətbuatı bu barədə çox yazırdı. Milli adət-ənənələrimizin pozulmasına ürək yanğısını qələmin dili ilə insanlara çatdırırdı. Lakin hələ ki, insanlar dədə-baba qaydasına qayıtmaq fikrində deyildilər. Bunun da səbəbləri var idi.

Məsələn, maddi imkanları yaxşı olanlar ata-anası dünyasını dəyişəndə həmin onlara dəbdəbəli yas qurur, ehsan süfrəsi açırdı. Sabah isə bir kasıb ailənin əzizi dünyasını dəyişəndə "qonşudan geri qalma" prinsipi işə düşür, bu ailənin imkansız övladı bankdan kredit götürməli olsa da, bu yas mərasimini də həmin zəngin ailənin açdığı süfrəyə bənzətməyə çalışırdı. Beləliklə də bütün cəmiyyət sabahı gün eyni ehsan süfrəsini açmaq məcburiyyətində qalırdı.

Bunun bir sonunun olması isə kimi düşündürməlidir? Əlbəttə ki, ağsaqqalları, din xadimlərini. Onların tövsiyəsi, məsləhəti, xalqa çağırışı olmadan bu işləri sahmana salmaq mümkün deyil. Neçə ki, illər öncə kəndlərimizdə ağsaqqal, ağbirçəklər olardı, bir elin toyu da, yası da onların məsləhəti, yolgöstərənliyi ilə düzülüb-qoşulardı, müasir dövrdə də biz həmin ənənələrə söykənməsək, bir də baxıb görəcəyik ki, bütün dəyələrimiz əlimizdən gedib.

Ağsaqqal olan yerdə Allah var, deyərlər. Ağsaqqal sözü eşidilməyən yerdə isə həmişə pərakəndəlik, hərc-mərclik yaranar. Yarandı da. Elə ki, hər kəs özünün ağsaqqalı, ağbirçəyi oldu, bax, toylarımız da, yaslarımız da bu günə qaldı. Toyların adət-ənənə ritmi pozuldu, yaslara məxsus qaydalar gündən-günə dəyişdi.

Maraqlıdır, yas mərasiminə əzizini itirmiş insanların dərdinə şərik olmağa gedirik, yoxsa yeyib-içməyə? Bax bu sualı özümüz özümüzə versək, cavabı inanıram ki hər kəs üçün aydın olacaq. Biz əlbəttə ki, kiminsə dərdinə şərik, acılı günündə onun təsəllivericisi olmağa çalışırıq. Belə isə dəbdəbəli ehsan süfrələrinə ehtiyac varmı? Axı ağzımızda yas mərasimi deyirik. Burada insanın boğazından bur qurtum suyun neçə keçə bilməsi də illərlə yaranan, lakin cavabı tapılmayan suallar silsiləsindəndir.

### Ümumi qaydalar həm insanların, həm də adətlərin xilas yoludur

Yuxarıda da qeyd etdiyim kimi, illər öncə Naxçıvanda da yas mərasimlərində açılan süfrələr eynilə bu gün paytaxtımızda və əksər bölğələrimizdə açılan ehsan süfrələrinin eynisi idi. Lakin zaman-zaman bu məsələ gündəmə gətirildi və buna son qoymağın, ata-baba qaydasının bərpasının zəruri olması insanları narahat etməyə başladı.

Toy və yas mərasimlərinin hər ikisi belədir ki, burada ümumi qaydalar olmasa, kim nə bilir, onu da edəcək, ətrafdakı insanlar da "o belə etdi, mən niyə etməyim?" deyəcək. Məhz buna görə də ümumi qaydalar həm insanların, həm də adətlərin xilas yoludur.

Naxçıvanda da elə edildi. Yas mərasimlərində ehsan süfrələri ilə bağlı ümumi qayda qoyuldu: bir növ xörək, halva, çay, xurma, limon. Yəni bu qayda ilə bir neçə növ xörək, meyvə, çərəz, konfet-şokolad, müxtəlif şirniyyatlar süfrələrdən götürülmüş, ixtisar edilmiş oldu. Maddi imkanı olan da, olmayan da eyni süfrəni açdı. Artıq illərdir ki, bu qayda Naxçıvanda yas mərasimlərində hökm sürür. Ağsaqqalların, din xadimlərinin nəzarəti ilə dəyişməz olaraq qalır.

Bu bir tərəfdən əsrlərdən üzübəri gələn adət-ənənələrimizin qorunmasına xidmət edirsə, digər tərəfdən maddi imkanı çox və az olan insanların hüquqlarının qorunmasına xidmət edir. Kasıb ailələrin banklardan kredit götürüb ehsan verməsinin, sonra da min arşın quyunun dibinə yuvarlanmasının qarşısını alır.

Onu da vurğulamaq yerinə düşər ki, Naxçıvanda nəinki yas mərasimlərinin ehsan süfrəsi qaydaya salınıb, hətta qəbirlərin də müəyyən ölçülər daxilində hazırlanması illər öncədən qüvvədədir. Hər bir qəbir eyni ölçüdə hazırlanır və üzərində qəbirüstü sərdabələrin ucaldılması, qəbir ətrafına hasarların çəkilməsi qadağan edilib. İndi Naxçıvanda hansı qəbiristanlığa getsən, orada bir nizam-qayda görmək mümkündür. Artıq Naxçıvanda illər öncə qəbiristanlıqlardakı varlı-kasıb məsələsi, fərqlilik də aradan qalxıb. Naxçıvanlılar buna "eyniyyət" prinsipi ilə nail olublar.

### Hələ Naxçıvanın Mahmudkənd və Camaldın kəndlərində isə...

Şərur rayonunun Mahmudkənd kəndinin əhalisinin birgə qərarı ilə yas mərasimlərində ehsan verilməsi qadağan edilib. Ötən ilin 10 sentyabrından etibarən kənd ərazisindəki 3, 7 və 40 mərasimlərində ehsan verilməməsi, əvəzində isə başsağlığına gələnlər üçün yalnız çay süfrəsi açılması qərarına gəlinib və tətbiqinə başlanılıb. Bu, əlbəttə çox təqdir olunacaq bir qərardır. Biz bunu çoxdan gözləyirdik. Axır ki, Mahmudkənd ağsaqqalları bu qərara gəldi və çoxsaylı kənd əhalisini böyük bir problemdən azad etdilər. Daha doğrusu, əsl yas mərasiminin, süfrəsinin necə olmasını gündəmə gətirdilər.

Daha sonra, yeni ötən ilin oktyabrında isə Naxçıvanın Culfa rayonunun Camaldın kəndində yas mərasimlərində ehsan verilməsini israfçılıq hesab edən, bəzən mərasim üçün bişirilən yemək və halvanın artıq qaldığından narahat olan sakinlər buna son qoymağa qərar verdilər.

İndi Camaldın kəndində də keçirilən yas mərasimlərində yalnız çay süfrəsi olur. Həmçinin yas mərasimlərinin üç, yeddi, qırx və il mərasimlərində də stolun üstündə digər qidalar olmur, yemək verilmir. Həm Mahmudkənd, həm də Camaldın sakinləri deyir ki, bu qaydalara əməl etməyən hər hansı bir yas sahibinin mərasimində din xadimləri və kənd ictimaiyyəti iştirak etməyəcək.

Budur, bax, qaydalar bu cür tətbiq olunmalıdır: el birliyi, el qərarı ilə. İndi gəl, görək, bu qaydaları kimsə poza bilərmi?

### Ağsaqqal sözünə ehtiyacımız var

Yas mərasimlərinin keçirilməsi ilə əlaqədər Naxçıvan nümunəsi ilə tanış olan hər kəs, bəli, hər bir bölgənin ağsaqqal sözünə, tövsiyəsinə ehtiyacı olduğunu söyləyə bilər. Həm toyların, həm də yasların necə keçirilməsini biz müəyyən etməliyik. Bu, inzibati şəkildə mümkün deyil. İctimai rəylə, qərarla, ağsaqqal sözü, məsləhəti ilə bu qaydaları öz əvvəlki halına qaytara bilərik.

Düşünürəm ki, Azərbaycanın bütün bölgələrində ağsaqqallar, din xadimləri bu məsələyə münasibət bildirməlidir. Onlar Naxçıvan nümunəsindən istifadə etməklə, bu qaydaları öz bölgələrində, şəhər və kəndlərdə də tətbiq etməklə yas mərasimlərinin özünəməxsusluğunu xilas etmiş olarlar. Sadəcə bir yerə yığışıb, qərar qəbul etmək lazımdır. Ümidvarıq ki, artıq zəhərlənə də bildiyimiz yas mərasimlərinin ehsan süfrələrində dəyişiklik etməyin vaxtı çatmışdır.

Və bəlkə də yas mərasimlərindən sonra toy mərasimlərinə də qayıtmış olarıq. Şad günümüzün rəmzi olan toylara da əvvəlki vüsətini, zəngin adət-ənənələrimizi qaytara bilərik. Bunlar bizim əlimizdədir. Belə isə, nəyi gözləyirik?..

***Mətanət Məmmədova***

# Avraam Linkolnın qurduğu ABŞ vətəndaş müharibəsi ilə dağıla bilər

Sözdə özünü azad, demokratik, hərbi, siyasi və maliyyə cəhətdən ən aparıcı və güclü dövlət olaraq təqdim etməyə çalışan ABŞ reallıqda fərqli hallarla özünü təqdim edir. Yəni ola bilsin ki, hərbi və siyasi cəhətdən hansısa dövlətdən üstündür, lakin azadlıq və demokratik dövlət quruculuğunda, eləcə də maliyyə imkanları baxımdan əksər dövlətlərdən geri də qalır. Bunu siyasi şərhçilər demir, jurnalistlər yazmırlar, özləri etiraf edirlər. Məsələn, bu günlər ABŞ -da ”qulağı kəsik qəhrəman” imicini qazanmış D.Tramp ölkə xəzin'darlığının açıqladığı statistikaya istinad etməklə bildirmişdir ki, ölkəsinin xarici borcu 35 trilyon dollara çatıb. Tramp siyasi populistlik edərək bildirib ki, o, prezident seçilərsə, dövlət borcunu iki dəfəyə qədər azaltmağa nail ola biləcək. Şübhəsiz ki, D.Tramp prezident seçilsə belə, maliyyə böhranını aradan qaldırması çətin görünür. Çünki ölkədə siyasi-ictimai vəziyyət həddindən artıq ağırdır. İkincisi, vergilərin yüksək olması və dövlət aparatının iş adamlarına təzyiqləri, rüşvətə almaları biznes mühitinin inkişafına ağır zərbə olub. Digər tərəfdən Demokratlar partiyasının prezidentliyə namizədi Kamala Harris asanlıqla D.Trampa məğlub olmaq niyyətində deyil. Hətta demək olar ki, müəyyən sahələrdə Trampdan üstün olduğunu nümayiş etdirir. Əsəblərin tarıma çəkildiyi bu hallar ölkəni vətəndaş müharibəsinə sürüklədiyini desək, səhv etmərik. Bunu əsaslandıran amillərdən biri də D.Trampın ”əgər prezident seçilməsəm ölkədə vətəndaş qarşıdurması yaşanacaq”,- deyə hədələyici bəyanatla çıxış etməsi də təsdiqləyir. Ona görə seçkilərin vaxtı yaxınlaşdıqca ABŞ-da vətəndaş müharibəsi təhlükəsi də artmaqdadır. Artıq ölkənin bütün bölgələrində silahlı qruplaşmalar peyda olub, müxtəlif şəhərlərdə, qəsəbələrdə yerləşirlər. Məlum tarixi faktdır ki, 1861-ci ildən 1865-ci ilə kimi Amerika Birləşmiş Ştatlarında şimal ştatlarının (ittifaqın) dəstəklədiyi hökumət ilə cənub ştatları (Konfederasiya) arasında vətəndaş müharibəsi getdi. 1861-ci ildə bir neçə cənub ştatı ABŞ-dan ayrılmaq və müstəqil dövlət yaratmaq qərarına gəldi. Onların arasındakı ixtilaf köləliyə görə baş verdi. Şimal ştatlarında insanlar hələ də cənub ştatlarındakı plantasiyalarda işləyən qaradərili kölələrin azad olunmasına razı deyildilər. Bu da ikili quruluşun - şimalda kapitalizm, cənubda isə quldarlıq quruluşunun yaranmasına gətirib çıxardı. Şimalda maşın istehsalının inkişafı, Cənubda isə aqrar sahənin inkişafı bu iki ərazi arasında qarşılıqlı əlaqələri zəruri edirdi. Cənubun yeni texnologiyalara, Şimalın isə hazır tütün, pambıq kimi məhsullara ehtiyacı olurdu. Lakin quruluşlar arasında olan fərq münasibətlərdə öz sözünü ciddi şəkildə deyirdi. Qaçan qullara azadlığın verilməsi, yeni tutulan ərazilərdə hansı quruluşun yaranacağı kimi təzadlar vətəndaş müharibəsinin başlamasına səbəb oldu.





## ”Mənim amerikalı əmioğlum” tamaşası Avraam Linkolnın ölüm səhnəsi oldu

Vətəndaş müharibəsi zamanı ABŞ-da iki cəbhə: Şimalda- İttifaq, Cənubda isə Konfederasiya yaranmışdı. Linkolnun əsas niyyəti hər bir vəchlə İttifaqı qoruyub saxlamaq idi. O, ikili quruluşun tamamilə əleyhinə idi və hesab edirdi ki, Birləşmiş Ştatlar ya tamamilə kapitalimzə keçməli, ya da quldar dövləti olmalı idi. Müharibənin gedişi göstərdi ki, quldarlığın ləğv edilməməsi ”İttifaq”ın dağılmasına gətirəcək. 1862-ci ildən başlayaraq Linkoln zəncilərə azadlığın verilməsi barədə hazırlıqlara başlamışdı. 4 il davam edən vətəndaş müharibəsi zamanı 650 minə qədər insan həlak olmuş, on minlərlə insan isə sağlamlığından məhrum olunmuşdur. 1865-ci ildə ABŞ konstitusiyasına XIII düzəliş edilməklə quldarlıq rəsmən ləğv olundu və vətəndaş müharibəsi Şimalın qələbəsi ilə başa çatdı. Müharibənin başa çatmasından 5 gün sonra, yəni 15 aprel 1865-ci il tarixində Ford teatrının səhnəsində qoyulan ”Mənim amerikalı əmioğlum” tamaşası zamanı həmin tamaşanın aktyoru Con Uilks But prezident lojasına daxil olaraq onun başına tapançadan güllə açmışdı. Güllə atandan sonra But səhnəyə çıxaraq latınca ”Sic semper tyrannis!” (tərcümədə: ”Tiranların taleyi belədir”- cənub ştatı olan Vircinyanın şüarı) kəlməsini səsləndirmişdi. Qətl siyasi xarakter daşıyıb. Con Uilks But prezidenti güllələdikdən sonra binanı tərk edib qaçmağa nail olub. Qısa bir müddətdən sonra onun fermada gizləndiyi müəyyənləşdirilib. Ferma mühasirəyə alınanda But təslim olmaq istəməyib. Buna görə də ferma yandırılıb və saysız-hesabsız açılan atəşlər Butun həyatına son qoyub. Beləliklə də, Avraam Linkoln qətlə yetirilmiş ilk ABŞ prezidenti olub.Onun nəşi 17 dəfə dəfn olunub, 6 dəfə isə tabutu açılıb. Bu, dəfn olunduğu yerin təmiri və məzarının təhlükəsizliyinin təmin olunması üçün edilib. Nəhayət, 1901-ci ildə, 36 ildən sonra prezidenti sonuncu dəfə İllinoys ştatında dəfn ediblər. Bugünkü ABŞ cəmiyyətində yaşanan xaos, anarxiya və siyasi qarşıdurma 1862- 1865-ci illəri xatırladır. Həm də ölkədə dərin irqçilik hökm sürür. Aparılan sorğular təsdiq edir ki, 2020-ci illə müqayisədə hazırda ABŞ-da irqçilik artaraq 55 faizə çatıb. Suallara cavab verən ağdərililərin 51 faizi irqlər arasında münasibətlərin mənfiyə doğru getdiyini, Afrika əsilli amerikalıların 79, latın amerikalıların isə 60 faizinin bu qənaətdə olduğu qeyd edilib. Sözügedən araşdırmada irqçiliyin ABŞ-ın keçmiş prezidentləri Corc Buşun dövründə 17, Barak Obamanın dövründə isə 37 faiz artdığını bildirmişdi. Donald Trampın dövründə irqçiliyin 55 faizə çatması ölkədə hər an alovlana biləcək vətəndaş müharibəsinin qığılcımları kimi dəyərləndirilir. Vəziyyətin ağırlaşması fonunda bəzi ştatlar özlərinin müstəqil dövlətlərini qurmağa çalışırlar. Bu məqsədlə Texas, Kaliforniya, Missuri, Alyaska və digər ştatların qubernatorları və parlament üzvləri yekdil fikirlə çıxış edir, dövlət müstəqilliyinin bərpasının vacibliyini qeyd edirlər. Hələ bir qədər əvvəl Texas qubernatoru Qreq Abbottun Texas ştatının konstitusiyasında təsbit olunmuş ABŞ-dan ayrılma ehtimalını nəzərdən keçirdiyini bildirib. Onu da qeyd edib ki, Texasda federal hakimiyyət bölgəni miqrantların ”işğal”ından qoruya bilmir və istəmir. Bundan əvvəl də Texasın müstəqilliyi uğrunda savaşlar baş verib. Lakin dəstək qazanmadığından istəklər reallığa çevrilməyib. 2009-cu ildə o zaman ştatın qubernatoru vəzifəsini tutan Rik Perri Texasın ABŞ-ın tərkibindən çıxmaq hüququnun olduğunu bəyan etsə də, bu hüququ şübhə altına alınır.



## Ştatlar dövlətçiliklərini bərpa edə bilər

Bir daha tarixə nəzər salaraq qeyd etmək lazımdır ki, 16-cı və 17-ci əsrlərdə Texas ştatı müstəqil dövlət olaraq böyük imkanlara və gücə malik dövlət olub. Avropadan olan İspanlar və digər köçkünlər məskunlaşmazdan əvvəl Texasın müasir ərazisi müxtəlif Hindu tayfalarının yaşayış yeri idi: Apaça, Atakapa, Bidai, Caddo, Komançi, Çeroki, Kayova, Tonkara, Viçita və Karankava. Apaçilər 1870-ci illərdə Texası tərk etd. Onlar ştatın xeyli ərazisini tutan son hindular idilər. Halhazırda ABŞ hökuməti Texasın üç yerli tayfasını -Alabama və Kuşat tayfasını, Kikapu tayfasını və İslet Del Sur Pueblo qəbiləsini tanıyıb. Texas 2 mart 1836-cı ildən 19 fevral 1846-cı ilə kimi müstəqil dövlət olub. Düzdür, Meksika bu illər ərzində Texası üsyançı bir əyalət kimi görsə də, ABŞ 1837-ci ilin martında Texas Respublikasını tanıyan ilk ölkədir. Texas rəsmi olaraq 19 fevral 1846-cı ildə öz istəyi və xalq referendumu ilə ABŞ-ın 28-ci ştatı olmasıdır. Bundan başqa ABŞ vətəndaş müharibəsi zamanı Texas ştatı Konfederasiyaya qoşulmazdan əvvəl 1 fevral - 2 mart 1861-ci il tarixləri arasında 1 aylıq müddətdə yenidən müstəqil olub. Bu mənada Texas ştatının hazırda ABŞ-dan ayrılıb yenidən müstəqil ölkə olmaq istəməsi təəccüblü deyil.1860-cı ildə köləliyə qarşı Respublika Partiyasından olan ilk prezident Avraam Linkolnun seçilməsi ilə on üç kölə ştatı qurultay nəticəsində ayrıldığını elan etdi və Amerika Konfederativ Ştatlarını qurdu, baxmayaraq ki, federal hökumət ayrılmanın qanunsuz olduğunu müdafiə etdi. Bu ayrılmanı təmin etmək üçün separatçılar hərbi əməliyyatlara başladı və İttifaq da eyni cavabı verdi. Bunun nəticəsi olan müharibə təxminən 618.000 əsgərin və bir çox vətəndaşın ölümünə səbəb oldu. Bu münaqişə Amerika tarixində ən ölümcül hərbi münaqişə oldu. Cənub qulların azadlığına qarşı mübarizə aparırdı, İttifaq isə ilk növbədə ölkəni bir bütün halda saxlamaq üçün mübarizə aparırdı. Bununla belə 1863-cü ildən sonra meydana gələn itkilər və Linkolnun öz Azadlıq Bəyannaməsini elan etməsi İttifaq baxımından müharibənin əsas məqsədini köləliyin ləğvinə çevirdi. Həqiqətən də İttifaq 1865-ci il aprel ayında müharibəni tamamilə qazandıqda məğlub olan Cənubdakı ştatların hər birini köləliyi qadağan edən on üçüncu dəyişikliyi ratifikasiya etməyə məcbur etdi.

## ABŞ-da tarix yenidən təkrarlanır

1836-cı ilin sonunda konstitusiya qəbul edildi (köləlik hüququnu təsdiq edən) və Texas Respublika tərəfindən elan edildi. İlk prezident Sem Hyüston oldu. Paytaxt bir neçə dəfə köçürüldükdən sonra 1837-ci ildə Hyüston hakimiyyət mərkəzi seçilib. Texas Respublikası beynəlxalq tanınma qazanmışdır. Eyni zamanda, meksikalıların Texasa reydləri davam etdi. 5 mart 1842-ci ildə Raphael Vasquez tərəfindən idarə olunan 500-dən çox adam sayında meksikalıların dəstəsi inqilabdan sonra ilk dəfə Texasa hücum etdi; San Antonioya çatdıqdan sonra Rio Grandaya geri çəkildi; 11 sentyabr 1842-ci il yarım minlik Meksika ordusu, Adrian Uoll tərəfindən idarə olunan, San Antonionun bir hissəsini ələ keçirdi, lakin daha sonra əsirləri ələ keçirərək geri çəkildi. Toqquşmalar təxminən 10 il davam edib və Meksika hökumətinin mövqeyinin möhkəmlənib-möhkəmlənməsindən və ya zəifləməsindən asılı olub. ABŞ rəsmi olaraq bu mübarizəyə qarışmadı, baxmayaraq ki, minlərlə könüllü texaslılara kömək etmək üçün ABŞ-a cəlb edildi. Meksika ilə Texas Respublikası arasındakı silahlı münaqişələr onun 1845-ci ildə ABŞ-a qoşulmasından çox, Meksika-Amerika müharibəsində 1846-1848 ABŞ-ın qələbəsi ilə nəticələndi. Texas Meksikadan ayrıldığı zaman, əvvəlcə ABŞ-ın gec-tez bir hissəsi olmağı planlaşdırırdı (texaslılar arasında Texasın genişləndirilməsi ideyası da var idi, baxmayaraq ki, Sakit Okeana qədər ərazisi olan böyük bir dövlətə çevrildi. Sonrakı mərhələdə bu ideyalar, sadəcə, kağız üzərində qaldı. Çünki Vaşinqitonda hakimiyyətə gələn şəxslər Texası işğal edib, ərazilərinə qatmaqla insanların dövlətçilik arzularını məhv etdilər. Lakin tarix yenidən təkrarlanır. Yəqin ki, D.Trampın başladığı və Baydenin əshabəsinin müəyyən məsələlərdə dəstək verdiyi qarşıdurmalar ölkənin parçalanmasını tezləşdirməyə imkan verəcək. Bu da müstəqillikləri əlindən alınan ştatlara yenidən öz dövlətlərini qurmağa imkan yaradacaq.

***İLHAM ƏLİYEV***

# Ərzaq təhlükəsi(zliyi): Azalan istehsal, artan idxal, bahalaşan qiymətlər - SƏBƏB NƏDIR?

## Aqrar sektorda tənəzzül: Qeyri-effektiv idarəetmə və fermerlərə maneələr ölkəmizi ağır vəziyyətə sala bilər

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti çərçivəsində hazırlanıb*



***Azərbaycan ənənəvi olaraq aqrar potensialı yüksək olan və bu sahədə zəngin və məhsuldar fəaliyyət tarixinə malik ölkələrdəndir. Bu sahənin vacibliyi onun inkişafı üçün bütün imkanlardan istifadə edilməsini tələb edir. Bəs mümkün imkanlardan, mövcud potensialdan necə istifadə edirik? Gəlin baxaq.***



### Dövlət aqrar sektor dəstəyi nəyi dəyişib?

Dövlətin tənzimləyci, yönəldici və stimullaşdırıcı funksiyasının detallarında aqrar siyasətin mahiyyəti gizlənir. Belə ki, müvafiq statistika bu sahədə dövlət siyasətini aydın göstərir. Aqrar sektorun inkişafı üçün dövlət dəstəyi getdikcə həm həcm, həm miqyas üzrə artır. Lakin milyardlarla ölçülən investisiyalar, subsidiyalar, müxtəlif dövlət yardımları hələ də öz effektini verə bilməyib. Belə ki, ərzaq məhsullarında idxaldan asılılığımız 50 faizi keçib, yerli istehsalın həcmi azalıb, daxili bazarda qiymətlərin artması baş verib. Yerli istehsal bir çox sahələrdə artmaq əvəzinə azalır. Burada müxtəlif faktorlar təsir göstərir- yerlərdə qeyr-effektiv idarəetmə, monopoliya halları, korrupsiya, fermerlərə müxtəlif bürokratik maneələr və sairə.

Ölkəmizin ümumdaxili məhsulunda aqrar sektorun payı son illərdə 5-10 faiza arasında dəyişir. Halbuki, ölkə əhalisinin 40 faizi potensial olaraq aqrar sektor məşğulluğuna aiddir. Halbuki, 50 il əvvəl aqrar sektor ÜDM-in 50 faizə yaxınını verirdi. 90-ci illərdə isə 25 faiz civarında idi.

Qeyri-neft sektorunun inkişafı kontekstində bizim üçün ən potensiallı sahə aqrar sahədir. Burada həm də sənayedən söhbət gedir- aqrar sənaye kompleksinin yaradılması yeyinti və yüngül sənayenin inkişafını təmin edə bilər.

Bu sektorda ciddi artımlar baş versə, bu öz növbəsində ÜDM-in artmasına, dövlət büdcəsinin gəlirlərinin yüksəlməsinə, işsizliyin ciddi səviyyədə azaldılmasına, ixrac imkanlarının artmasına, idxaldan asılılığın azalmasına, ölkədən valyuta çıxışının azalması və ölkəyə valyuta daxil olmasının artımına, ölkənin ərzaq bazarında bolluq və ucuzluğun yaranmasına səbəb olardı. Yığcam desək, aqrar sektorun inkişafı sosial vəziyyəti yaxşılaşdırmalı, iqtisadi artımı artırmalıdır. Lakin aqrar sektora ayrılan nəhəng vəsaitlər və edilən güzəştlər bu sahədə ciddi dəyiliklik yarada bilməyib, əksinə bəzi sahələrdə vəziyyət pisləşib.

### Ərzaq idxalında ciddi artımlar var

Bu ilin yanvar-iyul aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə yeyinti məhsulları idxalı 9 faiz artıb. Dövlət Gömrük Komitəsinin təqdim etdiyi məlumata əsasən, 2024-cü ilin 1-ci yarımilliyində ölkəyə 1 milyard 131 milyon dollar dəyərində yeyinti məhsulları idxal edilmişdir ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 73 milyon dollar, yəni 7% çoxdur. Qeyd etmək lazımdır ki, son 5 ildə ilin ilk yarısı üzrə müqayisə aparsaq, son 5 ildə yeyinti məhsulları idxalı 55%, son 10 ildə isə 2,2 dəfədən çox artıb.

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, 2024-cü ilin ilk yarısında əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 0,3 faiz artıb. Komitə heyvandarlıq məhsulları istehsalının 2,1 faiz artdığını bildirir.

Lakin Gömrük Komitəsinin məlumatlarına əsasən, əsas heyvandarlıq məhsullarının idxalının ciddi artdığı görünür. Bu ilin 6 ayı ərzində ət idxalı fiziki çəkidə 23,7%, dəyər ifadəsində isə 44,9% artıb. Süd idxalı fiziki çəkidə 8,5 faiz, kərə yağı və süddən hazırlanmış digər yağların idxalı fiziki çəkidə 58,9 faiz, dəyər ifadəsində isə 51,1 faiz artıb.

Azərbaycanda istehlak edilən bitki yağının 95%-i idxal edilir. İlk yarımildə bitki və heyvan mənşəli yağların idxalı fiziki çəkidə 23,3% artıb.

Bu ilin yanvar-iyun aylarında heyvandarlıq məhsullarının idxalının kəskin şəkildə artması isə ölkədə heyvandarlıqda vəziyyətin acınacaqlı olduğundan xəbər verir. Yarım il ərzində ət, süd və kərə yağı idxalı üçün ölkədən 140 milyon dollar vəsait çıxarılmışdır ki, bu da 5 il əvvəlki göstəricidən (73 milyon) 91,7%, 10 il əvvəlki göstəricidən isə (28,1 milyon dollar) 4,9 dəfə çoxdur. Beləliklə, 2024-cü ilin birinci yarımilliyində yeyinti məhsullarının idxal göstəricilərinə nəzər yetirdikdə görürük ki, yeyinti məhsullarının idxalı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,9%, son 5 ildə 55,3%, son 10 ildə isə 2,2 dəfədən çox artıb.

### İxracda da azalma müşahidə olunur

İşğaldan azad edilən torpaqlardakı 600 min hektarlıq sahə də heyvandarlıq və əkin dövriyyəsinə daxil edildiyindən ölkənin ümumi aqrar istehsalında ciddi artım olmalı idi. Nəinki yerli tələbatı ödəmək, hətta bir çox məhsullarda ixracı artırmaq potensialı da var. Lakin belə olmadı. Əksinə, idxalın artması ixracın azalması ilə müşayiət olunur. İlk yarımildə əvvəlki ilin eyni dövrü ilə müqayisədə əsas ixrac məhsullarından meyvə-tərəvəz ixracı fiziki çəkidə 7,7% azalıb. Kartof ixracı fiziki çəkidə 32,1% azalıb.

Yeri gəlmişdən, ilk 6 ayda kartof istehsalında azalma qeydə alıb. DSK-nın məlumatına görə, yanvar-iyun aylarında 358 min ton kartof istehsal edilib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 17% azdır.

Fiziki çəkidə alma ixracında azalma 1,8%, nar ixracında 41,1%, fındıq ixracında 31% azalma var. Bir sıra digər məhsul ixracında da azalmalar var. Deməli, ixracın azalması nəticəsində ölkəyə gələn valyuta da azalır.

Göründüyü kimi, aqrar sektorda çox ciddi problemlər var. Dövlətin bu sahəyə çox böyük vəsaitlər ayırdığına, ciddi güzəştlər və yardımlar etdiyinə baxmayaraq sahəyə məsul orqanlar və məmurların yarıtmaz işi sayəsində ciddi inkişaf əldə edə bilmirik, əksinə geriləmə müşahidə olunur. Beləliklə, dövlətin bu qədər vəsaitləri də batmış olur.

Bu sahədəki problemlərə isə ilk növbədə Kənd Təsərrüfatı Nazirliyi məsuliyyət daşıyır. Nazirlik aqrar sektora elmi yanaşma qoya bilməməsi, effektiv idarəetmə və düzgün stimullaşdırma apara bilməməsi, regional və sektorial planlaşdırmanı qura bilməməsi, proqnozlaşdırma və preventiv tədbirlərin olmaması aqrara sektorda vəziyyəti tənəzzülə aparır.

### Qlobal ərzaq böhranına hazırıqmı?

Beynəlxalq proqnozlara görə, qarşıdan qlobal ərzaq böhranı gəlir. İdxaldan asılı olan ölkələrin vəziyyəti yaxşı olmayacaq. Ona görə gə, bu sahədə çox ciddi islahatlar aparılmasına ehtiyac var. Həm kadr islahatı, həm stimullaşdırma, idarəetmə və planlaşdırma düztgün aparılmalı, həm elmi yanaşma ortaya qoyulmalı, həm texnika parkı gücləndirilməli, həm də fermerlərə yaradılan problemlər həll olunmalıdır.

Üstəlik, fermerlərin bazarlara çıxşı imkanlarının məhdudlaşdırılması şəraiti də aradan qaldırılmalıdır- bu gün sahələrdə 20-30 qəpiyə alınan meyvə-tərəvəzin iri şəhərlərdə 10 qat baha- 2-3 manata satılması məhz bununla bağlıdır. Yeri gəlmişkən, mövsümi meyvə-tərəvəz və digər məhsulların qiymətləri hər il yeni rekordlar vurur. Bu isə aqrar sektorda məhsuldarlığın azalmasını, xərclərin çoxalmasını, bazarlama probleminin olmasını, bir sözlə qeyri-düzgün idarəetməni göstərir.

Dövlət ilk növbədə kiçik sahibkarlara- fermerlərə dəstək verməlidir. Bu istiqamətdə ən effektiv proqramlardan biri də Özünüməşğulluq proqramı ola bilər. Proqrama müraciət edənlərə kəndlərdə, toxum, meyvə tingləri, mal-qara və sair təmənnasız təmin olunur. Bu proqramın büdcəsi və miqyası dəfələrlə artırılmalıdır- bu halda yüz minlərlə işsiz kəndli özünə iş yeri qurar, ölkədə ərzaq istehsalı artar, son nəticədə həm dövlət büdcəsinə vergi ödənişləri artar, həm sosial prolemlər azalar. Fikrimizcə, bu vəsaitlərin azı 90 faizi rayonlarda, kəndlərdə istehsal obyekti və ya təsərrüfatı yaratmaq istəyənlərə yönəldilməlidir.

Bunun üçün müvafiq maliyyə ehtiyatlarımız da var. Məsələn, xarici fondlarda 1-2 faizlik gəlirliliklə saxladığımız strateji valyuta ehtiyatlarımızın bir qismini geri çəkib, ölkə iqtisadiyyatına invest etmək vacibdir. Bu, dəfələrlə daha artıq gəlir gətirəcək. Xaricdən aldığımız gündəlik tələbat mallarının çox böyük hissəsini özümüzdə istehsal etmək üçün bütün imkanlar da, xammal da var, sadəcə istehsal avadanlıqlarını alıb gətirmək kifayətdir. Ən pis halda yerli tələbatı ödəyəcəyik və xaricdən idxala yönələn külli miqdarda valyuta ölkəmizdə qalacaq.

Qlobal iqtisadi böhranlar, ekoloji problemlər, hərbi münaqişələr qlobal istehsalı və ölkələrarası ticarəti xeyi zəiflədib. Əgər qlobal vəziyyət bir qədər də gərginləşsə və ya dünyada digər gözlənilməz problemlər də yaransa, ölkələr öz ümidinə qalacaq. Bu şəraitdə biz istənilən qlobal böhranlara və fors-major hallarına hazır olmalıyıq. Bunun üçün də ölkəmizin potensialından maksimum istifadə etməliyik.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
23 avqust
2024-cü il

# XƏBƏRDARLIQ:

## Bu gün 40 dərəcə isti olacaq




Avqustun 23-də Azərbaycanda hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi gündüz mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 21-26° isti, gündüz 34-39° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 758 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-80 %, gündüz 40-50 % olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq rayonlarda zəif duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 35-38° isti, bəzi yerlərdə 40°-dək isti, dağlarda gecə 13-18° isti, gündüz 22-27° isti olacaq.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Dünyada ən çox qızıl ehtiyatı olan bu ölkələrdir




Beynəlxalq Qızıl Şurası dünya ölkələrinin qızıl ehtiyatları barədə məlumatları yeniləyib. Belə ki, Banklardakı qızıl ehtiyatının həcminə görə ilk yerdə 8 133 tonla ABŞ gəlir. Növbəti pillədə qərarlaşan Almaniyanın ehtiyatları 3 352 tondur. Bundan başqa, üçüncü yerdə İtaliya (2 452 ton), dördüncü yerdə Fransa (2437 ton), beşinci yerdə isə Rusiya (2 336 ton) dayanır. Asiya nəhəngi Çin isə 2 264 ton ehtiyatla altıncıdır. Ölkə ehtiyatlarını il ərzində 2 ton artırıb.

## Türkiyəli aktyor 60 milyonluq malikanə tikdirir

Türkiyəli aktyor Burak Özçivit qazandığı pulları əmlak sektoruna yönəldib. Türkiyə mətbuatı yazır ki, tanınmış aktyor Bodrumda hər birinin dəyəri 60 milyon lirə olan (ümumilikdə 12 milyon 48 min manat) 4 malikanə tikdirib. O, həyat yoldaşı Fahriyə Evcen və övladları ilə birgə evlərdən birinə köçüb.



## Yelkənli qayıqda yoxa çıxan məşhur milyarderin cəsədi tapılıb

İtaliyada batan yelkənli qayıqda yoxa çıxan məşhur milyarder Mayk Linçin cəsədi tapılıb. Linçin 18 yaşlı qızı Hanna ilə hələ də əlaqə saxlamaq mümkün deyil. SİA xarici KİV-ə istinadən xəbər verir ki, "Reuters"in təfərrüatlarına görə, həftənin əvvəlində Siciliya sahillərində şiddətli fırtına zamanı batan yelkənli qayıqda Mayk Linçin cəsədi də tapılıb. 18 yaşlı qızı Hannadan hələ də xəbər yoxdur. Qayıq batarkən itən digər 4 nəfər isə dünən tapılıb.




İçərisində 22 sərnişin və ekipajı olan 56 metr uzunluğundakı Britaniya bayrağı altında olan super yaxta Bayesian şiddətli fırtınanın təsiri ilə bir neçə dəqiqə ərzində Palermo yaxınlığındakı Porticello limanı yaxınlığında batıb. 59 yaşlı Linç Böyük Britaniyanın ən tanınmış texnologiya sahibkarlarından biri idi və bu yaxınlarda ABŞ-də baş vermiş böyük fırıldaqçılıq işinə görə bəraət qazandı. Qayıqda həyatını itirən digər şəxslər Jonathan Bloomer, Chris Morvillo, Neda Morvillo, Mike Lynch və Recaldo Thomasdır. Linçin xanımı gəmidən sağ çıxmağı bacarıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**